QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 018 (6218) 30 yanvar 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.



# Şəhid ailələrinə və müharibə əlillərinə dövlət qayğısı davamlıdır

*Prezident İlham Əliyevin şəhid ailələri və qazilərlə bağlı yeni sərəncamı bunun təsdiqidir*

Bax 2



## Leyla Əliyevanın tapşırığı ilə IDEA azad olunmuş ərazilərdə işlər görəcək

Bax 4





Kafe,restoran və çay evləri hansı qaydalar əsasında fəaliyyət göstərəcək?



Ermənilər 54 min hektardan çox meşə ərazisini məhv ediblər

## Azərbaycan və Rusiya XİN rəhbərləri arasında telefon danışığı olub



Bax 5

Cari ilin 29 yanvar tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.

## Mövlud Çavuşoğlu: “Ermənistandan konstruktiv addımlar gözləyirik”

“Cənubi Qafqazda normallaşma region ölkələrinin xeyrinə olacaq”. Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu iranlı həmkarı Cavad Zəriflə mətbuat konfransında deyib. Nazir bildirib ki, bu normallaşmadan ən çox Ermənistan və Ermənistan əhalisi faydalanacaq.



Bax 5

## Qadın jurnalist Paşinyana meydan oxuyur

Erməni jurnalist Liya Sarkisyan baş nazir Nikol Paşinyana meydan oxuyur. “İki sahil” xəbər verir ki, jurnalist ötən gün Şuşanın tarixi Azərbaycan şəhəri olması ilə bağlı suala Paşinyanın cavab olaraq verdiyi “yazılı müraciət edin, ancaq o zaman cavablandıracam” tələbini yerinə yetirib...



Bax 4

**Elman Rüstəmov: Bu il Azərbaycanda inflyasiya 4% civarında olacaq**



Bax 4

**Sosial şəbəkələr ailələrdə hansı problemlər yaradır?**



Bax 15

**65 yaşdan yuxarı şəxslərin vaksinasiyasına başlanılır: Proses necə aparılacaq?**



Bax 7

# Şəhid ailələrinə və müharibə əlillərinə dövlət qayğısı davamlıdır

## *Prezident İlham Əliyevin şəhid ailələri və qazilərlə bağlı yeni sərəncamı bunun təsdiqidir*



***Azərbaycanın modern dövlət quruculuğunda sosial siyasətin önəmli istiqamətlərindən biri də şəhid ailələrinin, Qarabağ müharibəsi veteranları və əlillərinin sosial müdafiəsidir. Ümumilikdə, mütərəqqi sosial siyasət həyata keçirən Azərbaycanda vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirilir. Azərbaycanda Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə yüksək dövlət qayğısı davamlı xarakter daşıyır və bu siyasətin əsası xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub.***

Ulu Öndər Heydər Əliyev tərəfindən 1994-cü il avqust ayının 26-da imzalanan "Azərbaycan Respublikasını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" Fərman müharibə əlillərinin sosial ehtiyaclarının ödənməsi istiqamətində atılan ilk addım olub. Həmin Fərmanın imzalanması ilə müharibə iştirakçılarının, əlillərinin sosial müdafiəsini gücləndirmək məqsədilə tədbirlərə start verilib.

Məhz bu gün də bu istiqamətdə həyata keçirilən tədbirlər sistemli və ardıcıl xarakter daşıyır. Belə ki, dövlətimizin başçısının bu istiqamətdə müvafiq Fərman və sərəncamlar imzalaması əlil və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə müstəsna töhfələr verir. Xüsusilə, bu gün müstəqil Azərbaycan, dövlət başçısı İlham Əliyev İkinci Vətən Müharibəsi nəticəsində qaçqın və məcburi köçkünlərə, müharibədə şəhid və fiziki sağlamlığını itirən şəxslərin ailələrinə xüsusi diqqət ayırır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, 44 günlük Vətən Müharibəsinin əldə etdiyi bu böyük Qələbənin əsas qəhrəmanı Azərbaycan əsgəri və zabitidir. Müharibə zəfərlə başa çatandan sonra Ali Baş Komandanımızın ilk növbədə yaralı hərbçilərimizlə görüşməsi də onlara yüksək hörmət və ehtiramın, qayğının nümunəsidir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən, dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Prezident İlham Əliyev ölkənin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında cari ilin yanvar ayının 25-də imzalanmış "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncam da bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlı olduğunun bariz nümunəsidir. Bu Sərəncam da digər sərəncamlar və fərmanlar kimi Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsində həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu Sərəncam çoxsaylı ailələrə mənzil ehtiyaclarını qısa zaman kəsiyində ödəməklə onlara böyük sevinc bəxş edəcək, bununla da şəhid ailələrinin sosial müdafiəsi daha da yaxşılaşacaq. Sərəncamda deyilir:

1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aşağıdakı şəxslərin (ailələrin) 2021-2025-ci illər ərzində mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla tədbirlər planını təsdiq edib həyata keçirsin:

1.1. 2014-cü il yanvarın 1-dən 2020-ci il yanvarın 1-dək yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid ailələri, habelə uçota alınma tarixindən asılı olmayaraq, Çernobıl AES-də qəzanın ləğvi (o cümlədən hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin) yerinə yetirilməsi) ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər;

**Ardı Səh. 3**



# Şəhid ailələrinə və müharibə əlillərinə dövlət qayğısı davamlıdır

*Prezident İlham Əliyevin şəhid ailələri və qazilərlə bağlı yeni sərəncamı bunun təsdiqidir*



Əvvəli-Səh-2

1.2. yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış və 2020-ci ildə aparılan hərbi əməliyyatlar zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid ailələri.

2. Yerli icra hakimiyyəti orqanları:

2.1. bu Sərəncamın 1.1-ci və 1.2-ci bəndlərində göstərilən şəxslər barədə məlumatları Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etsinlər;

2.2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müraciəti əsasında bu Sərəncamın 1-ci hissəsində göstərilən məqsədlər üçün torpaq sahələrinin ayrılmasını təmin etsinlər və hər il görülmüş işlər barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təklifləri əsasında bu Sərəncamın 1-ci hissəsində göstərilən tədbirlər planının həyata keçirilməsi üçün tələb olunan vəsaitin 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) bölgüsünün layihəsində, 2022-2025-ci illərdə isə hər il dövlət büdcəsinin tərtibi prosesində dövlət əsaslı vəsait qoyuluşunda (investisiya xərclərində) nəzərdə tutulmasını təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bu Sərəncamın icrası ilə bağlı görülmüş işlər barədə hər növbəti ilin birinci ayında Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

Vətəndaş dövlətin arxasında olduğu kimi, dövlət də vətəndaşının arxasındadır

Göründüyü kimi, Azərbaycan dövlətinin apardığı siyasətin əsas məqsədi ölkənin iqtisadi cəhətdən daha da inkişaf etməsidir. Çünki məhz iqtisadi yüksəliş dövlətə sosial məsələləri uğurla həll etməyə imkan verir. Təsadüfi deyil ki, hər il ölkənin büdcəsi təsdiq olunarkən əhalinin sosial rifahının artırılması diqqət mərkəzində olur.

Büdcədən sosial sahəyə ayrılan vəsaitin həcmi ildən-ilə artır. Hətta pandemiya şəraiti səbəbindən dövlətin gəlirləri müəyyən qədər azalsa belə, cari ildə də sosial sahəyə ayrılan vəsaitin həcmi çoxalıb. Həyata keçirilən sosial siyasət həm də geniş əhatəli olur. Bu zaman ölkənin sosial dəstəyə ehtiyacı olanların hamısının mənafeyi nəzərə alınır. Azərbaycanda tələbələrdən tutmuş İkinci Dünya müharibəsinin veteranlarına kimi hamıya sosial qayğı göstərilir. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bəyan edib ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi dayanır. Bu, sosial sahədə görülən işlərdə praktiki olaraq təsdiqini tapır.

Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən intensiv tədbirlər artıq öz təsirli nəticələrini verməkdədir. Şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsi tədbirləri nəzərəçarpacaq dərəcədə gücləndirilib, o cümlədən onlara yönələn sosial ödənişlər dəfələrlə artırılıb. Eyni zamanda, şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri yüksək səviyyədə davam etdirilir.

Xüsusi olaraq vurğulayaq ki, əlil vətəndaşlara dövlət qayğısının gücləndirilməsi siyasətinə uyğun olaraq Nazirlər Kabineti tərəfindən əlillərin sosial müdafiəsi ilə bağlı nəzərdə tutulmuş Dövlət Proqramının maliyyələşdirilməsi təmin olunub. "Sosial müavinətlərin məbləğinin artırılması haqqında", "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün artırılması və "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanları bu kateqoriyadan olan insanların rifah halını yaxşılaşdırmaq və onlara göstərilən dövlətin davamlı qayğısının bariz nümunəsidir.

Mərkəzi Bankdan verilən məlumata görə, Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, Mərkəzi Bank və Azərbaycan Banklar Assosiasiyası banklar tərəfindən Müdafiə Nazirliyinin rəsmi siyahısında yer almış şəhidlərdən banklar qarşısında kredit öhdəliyi olan 830 şəhidə aid 1 503 kredit üzrə həm əsas borcun, həm də faizlərin silinməsini təmin ediblər. Eyni zamanda, şəhidlərimizin ailə üzvlərinə aid olan 286 sayda, xəsarət almış hərbçilər üzrə 1 323 sayda kreditin, şəhid olmuş 15 nəfər və ciddi zərər çəkmiş 9 nəfər mülki şəxsin borc öhdəliklərinin tamamilə silinməsi təmin olunub. Bank olmayan kredit təşkilatları da bu prosesdən kənarda qalmayıb və onlar da qeyd olunmuş əhali qrupları üzrə kreditlərin tam silinməsini təmin ediblər. Şəhidlərin ləğv prosesindəki banklar üzrə olan borcları da güzəştdən kənarda qalmayıb.

Eyni zamanda, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanuna əsasən, dövlət ali, orta ixtisas və peşə təhsili müəssisələrində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatda ödənişli formada təhsil alan şəhid ailələrinin üzvləri təhsil haqqı ödəməkdən azad olunublar. Bu təminatlar I Qarabağ müharibəsi şəhidlərinin ailə üzvləri ilə yanaşı, Vətən müharibəsi şəhidlərinin də ailə üzvlərinə şamil edilir.

2020-ci ilin dekabrın 24-də Əmanətlərin Sığortalanması Fondundan bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq Müdafiə Nazirliyinin rəsmi siyahısında yer almış torpaqların azad edilməsi uğrunda döyüşlərdə şəhid olmuş hərbçilərin ləğv prosesində olan banklardakı kreditlər borclarının və onlara hesablanmış faizlər və digər ödəmələrin, həmçinin düşmən təxribatı nəticəsində həyatını itirmiş mülki vətəndaşlarımızın ləğv prosesində olan banklardakı kredit borcları və onlara hesablanmış faizlər və digər ödəmələrin tam həcmdə silinməsi təmin olunub.

Göründüyü kimi, Prezident İlham Əliyevin uğurlu sosial siyasəti ölkə vətəndaşlarının rifah halının yaxşılaşdırılması istiqamətində mühüm addımların atılmasını, sosial inkişafda ciddi irəliləyişləri təmin edir. Bütün sosial proqramlar kimi, şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzil və fərdi evlə təminatı proqramı da ildən-ilə uğurla davam etdirilir və əhəmiyyətli şəkildə minnətdarlıqlarını ifadə ediblər genişləndirilir.

Bütün bunlar göstərir ki, Azərbaycan Prezidenti və Birinci vitse-prezident Mehriban xanım Əliyeva qayğıya ehtiyacı olan insanların, xüsusilə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş insanların ailələrinin, əlillərin sosial məsələlərinin həllini xüsusi diqqət mərkəzində saxlayır.

Bir sözlə, görünən odur ki, əhalisinin sosial müdafiəsinin təmin edilməsi müstəqil Azərbaycan dövlətinin qarşısında duran strateji vəzifələrdən biridir. Dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

**RƏFİQƏ KAMALQIZI**

# Leyla Əliyevanın tapşırığı ilə IDEA azad olunmuş ərazilərdə işlər görəcək



IDEA-nın təsisçisi və rəhbəri Leyla Əliyevanın tapşırığı ilə IDEA işğaldan azad olunmuş ərazilərdə ekoloji vəziyyətin yenidən canlandırılması istiqamətində işlər görəcək. SİA-nın məlumatına görə, bunu IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov işğaldan azad olunmuş ərazilərdəki ekoloji durum, görülmüş və görüləcək işlərlə bağlı keçirilən brifinqdə deyib.

S.Şükürov bildirib ki, 30 illik erməni işğalının fəsadlarını görmək hamımızı sarsıtdı: "Bu kimi cinayətlər onu göstərir ki, ölkəmizə qarşı ekoloji terror törədilib. IDEA işğaldan azad edilmiş ərazilərdə ilk olaraq təbii sərvətlərin qiymətləndirilməsi istiqamətində işlər görəcək. Növbəti addım isə həmin yerlərin bərpası olacaq".

# "Azərbaycan və Belarus arasında ikitərəfli münasibətlər müxtəlif istiqamətlərdə uğurla inkişaf edir"

*Belarus səfiri etimadnaməsinin surətini Azərbaycanın xarici işlər nazirinə təqdim edib*



***Yanvarın 29-da xarici işlər naziri Ceyhun Bayramov Belarus Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş səfiri Andrey Ravkovun etimadnaməsinin surətini qəbul edib.***

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir Ceyhun Bayramov Azərbaycana səfir təyin olunması münasibətilə Andrey Ravkovu təbrik edib və səfirə gələcək fəaliyyətində uğurlar arzulayıb. Nazir Azərbaycan və Belarus arasında mövcud olan ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini məmnunluqla qeyd edib və bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb. İki ölkə liderləri arasındakı dostluq münasibətlərinin ikitərəfli əlaqələrin inkişafına əhəmiyyətli töhfə verdiyi bildirilib. Ceyhun Bayramov hər iki ölkənin mövqeyinin beynəlxalq hüquq prinsipləri, xüsusilə də suverenlik, beynəlxalq sərhədlər çərçivəsində ərazi bütövlüyünə hörmət və daxili işlərə qarışmamaq prinsiplərinə əsaslandığını ifadə edib.

Nazir müstəqilliyinin ilk günlərindən etibarən Azərbaycanın üzləşdiyi təhlükəsizlik təhdidləri, ərazilərinin 20%-nin Ermənistan tərəfindən hərbi işğalı, etnik təmizlənməsi, onilliklər ərzində davam edən işğal siyasəti, nəhayət 44 günlük Vətən müharibəsi nəticəsində ərazilərimizin işğaldan azad edilməsi, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla hərbi əməliyyatlara son qoyulması və bölgədə hazırda mövcud olan vəziyyətlə bağlı Belarus səfirinə məlumat verib.

Səfir Andrey Ravkov Belarus Respublikasının xarici işlər naziri Vladimir Makeyin salamlarını nazir Ceyhun Bayramova çatdırıb. Ölkələrimiz arasında müxtəlif sahələr üzrə inkişaf edən əməkdaşlıq münasibətlərinin əsasında hər zaman beynəlxalq hüququn müstəqillik, suverenlik və ərazi bütövlüyünə dəstək prinsiplərinin dayandığı vurğulanıb. O, ikitərəfli əlaqələrin gələcəkdə daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini qeyd edib. Hərbi əməliyyatların dayandırılması və sülhün bərqərar olunması səyləri münasibətilə məmnunluq ifadə edən Belarus səfiri hazırkı mərhələdə üçtərəfli razılaşmaların yerinə yetirilməsinin əhəmiyyətini qeyd edib. Tərəflər ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi üzrə razılıqlarını ifadə ediblər.

# Nigar Arpadarai: "Ermənilərin bütün cəhdlərinin qarşısı alındı və onlar tam iflasa uğradılar"

***Azərbaycan nümayəndə heyətinin üzvləri AŞPA-nın qış sessiyasında fəal iştirak etdilər. Sessiya çərçivəsində keçirilən komitə iclasları çox böyük əhəmiyyət daşıyır. Çünki bütün məsələlər bu iclaslarda həll olunur və sonra plenar iclasa çıxarılır. Bu dəfə də komitə iclaslarında gərgin işlər getdi, ermənilərin bütün cəhdlərinin qarşısı alındı və onlar tam iflasa uğradılar.***




Bu fikirləri AZƏRTAC-a müsahibəsində deputat Nigar Arpadarai söyləyib. Deputat bildirib ki, erməni nümayəndə heyətinin sessiyanın gündəliyinə, qətnamə layihələrinə müəyyən iddialarını daxil etmək üçün hazırlaşıb gəldikləri elə ilk gündən məlum oldu. Xüsusilə də onlar atəşkəslə bağlı üçtərəfli bəyanatdan sonra Azərbaycan torpaqlarında saxlanılmış erməni diversant və terrorçularını "müharibə əsiri" kimi təqdim etməyə cəhd göstərdilər. Ancaq onların bu cəhdlərinə əvvəlcə Büroda, sonra isə Assambleyada fikir verilmədi, bu məsələlər heç müzakirəyə də çıxarılmadı. Erməni nümayəndə heyətinin Monitorinq Komitəsinin hesabatına da dəyişiklik etmək cəhdləri iflasa uğradı. Ermənilərin cəhdlərinin iflasa uğraması nümayəndə heyətimizin üzvlərinin əməyinin məhsuludur. Onlar bütün güclərini səfərbər edərək ermənilərin böhtan və yalan xarakterli cəhdlərinin qarşısını aldılar. Bu sessiya nümayəndə heyətimiz üçün çox uğurlu oldu. Əvvəllər ermənilər yalanlarını müəyyən hallarda yeridə bilirdilər, lakin indi artıq hamı bilir ki, beynəlxalq hüquq kimin tərəfindədir. Buna görə də artıq Azərbaycana münasibətdə tarazlığa riayət olunur.

AŞPA-da iki məruzəyə fikir bildirdiyini deyən N.Arpadarai qeyd edib : "Avropada etnik profilləşmə məruzəsi üzrə çıxış etdim. Bu mövzu üzrə hazırlanmış məruzə çox maraqlı idi. Məruzədə Avropada insanlara etnik mənşəyinə görə ayrı-seçkilik edilməsidir. Xüsusilə də polisin gündəlik yoxlama zamanı insanların etnik mənşəyinə görə profilləşdirməsindən söz açıldı.

Digər məruzə isə sosial mediadan asılılıq, eləcə də böyük texnoloji şirkətlərin söz və ifadə azadlığına təhdidlər yaratmasına həsr edilmişdi. Həqiqətən də bu gün böyük texnoloji şirkətlər siyasi, eləcə də həyatımızın bütün sahələrində mühüm hadisələrə güclü təsir edə bilir".

## Elman Rüstəmov: Bu il Azərbaycanda inflyasiya 4% civarında olacaq



Azərbaycan Mərkəzi Bankının (AMB) dekabrda yenilənmiş proqnozlara görə, ölkədə inflyasiyanın 2021-ci ildə 4% diapozonunda formalaşacağı gözlənilir. "İki sahil" xəbər verir ki, bu barədə faiz dəhlizinin parametrlərinə dair onlayn mətbuat konfransında çıxış edən AMB-nin sədri Elman Rüstəmov deyib.

Onun sözlərinə görə, bu, fiskal stimullaşdırılma və istehlakın bərpası ilə bağlıdır. Xatırladaq ki, 2020-ci ildə Azərbaycanda inflyasiya 2,8% təşkil edib.

## Ərdoğan İrana səfər edəcək



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın İrana səfəri gözlənilir. SİA-nın məlumatına görə, bunu Türkiyədə səfərdə olan İran xarici işlər naziri Məhəmməd Cavad Zərif deyib. O bildirib ki, tezliklə səfərin tarixi və digər detalları müəyyənləşdiriləcək. İranlı nazir, həmçinin Azərbaycan, Ermənistan, Türkiyə, Rusiya, İran və Gürcüstanın iştirakı ilə regional əməkdaşlıq platformasının yaradılmasına ümidvar olduğunu deyib.

## Qadın jurnalist Paşinyana meydan oxuyur



Erməni jurnalist Liya Sarkisyan baş nazir Nikol Paşinyana meydan oxuyur. "İki sahil" xəbər verir ki, jurnalist ötən gün Şuşanın tarixi Azərbaycan şəhəri olması ilə bağlı sualına Paşinyanın cavab olaraq verdiyi "yazılı müraciət edin, ancaq o zaman cavablandıracam" tələbini yerinə yetirib.

O, baş nazirin parlamentdə səsləndirdiyi "birinci müharibədən əvvəl Şuşanın 90% əhalisi azərbaycanlılardan ibarət idi. Demək istəyirsiniz ki, 90%-i Azərbaycan əhalisi olan Şuşanın statusu ermənidir?" sözlərini posterə yazaraq hökumət binası qarşısına gəlib. Lakin Nikol Paşinyanın tərəfdarları onun posterini cırıb.

# "Azərbaycan İordaniya ilə münasibətlərin inkişafına böyük önəm verir"

*Milli Məclisin sədri İordaniyanın ölkəmizdəki səfiri ilə görüşüb*



***Yanvarın 29-da Milli Məclisin sədri Sahibə Qafarova İordaniya Haşimilər Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sami Asem Ğoşeh ilə görüşüb.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, sədr qonağı salamlayaraq, Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan dövlətlərdən biri kimi ölkəmizin İordaniya ilə münasibətlərin inkişafına böyük önəm verdiyini bildirib. Qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevlə İordaniya Kralı II Abdullah arasındakı səmimi dostluq münasibətləri, dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin həyata keçirilməsi, aparılan danışıqlar və tərəflər arasında imzalanmış sənədlər münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə yüksəldib. Siyasi müstəvidəki müsbət dialoq digər sahələrdə də, intensiv əlaqələrin qurulmasına şərait yaradır. Heç də təsadüfi deyil ki, ölkələrimiz həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edir. İqtisadi sahədə əlaqələrimizi daha da dərinləşdirmək üçün geniş imkanlar var.

Milli Məclisin sədri dövlətlərarası münasibətlər sistemində parlamentlərin rolunu xüsusi vurğulayaraq, hər iki ölkənin qanunvericilik orqanları arasında əlaqələrin inkişafının əhəmiyyətindən danışıb. Bildirib ki, bu gün Milli Məclisdə Azərbaycan-İordaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Deputatların qarşılıqlı səfərləri, müxtəlif beynəlxalq platformalarda mütəmadi görüşləri təcrübə və informasiya mübadiləsi baxımından çox önəmlidir. Bu, bölgə həqiqətlərinin, o cümlədən Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Zəfər barədə məlumatların geniş ictimaiyyətə çatdırılması baxımından da əhəmiyyətlidir.

Sədr qonağa diplomatik fəaliyyətində uğurlar arzulayaraq, onun səfir kimi iki ölkə arasında əməkdaşlığın inkişafına layiqli töhfələr verəcəyinə inamını ifadə edib.

Səmimi qəbul üçün minnətdarlığını bildirən İordaniya Haşimilər Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sami Asem Ğoşeh deyib: "Azərbaycanı sevməmək mümkün deyil". Qeyd edilib ki, İordaniya onunla ortaq dini, mədəni və mənəvi dəyərləri bölüşən Azərbaycanla əlaqələrin genişlənməsində maraqlıdır. Hər iki ölkənin dövlət başçıları arasındakı dostluq münasibətləri əməkdaşlığımızın daha da inkişafı üçün möhkəm zəmin yaradır. Siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələrimiz yüksələn xətlə inkişaf edir.

Səfir deyib ki, əməkdaşlığımızın dərinləşməsində parlamentlərin rolu böyükdür. Qonaq İordaniya parlamentinin formalaşması və fəaliyyəti haqqında ətraflı məlumat verərək, nümayəndə heyətlərinin səfərlərinin və deputatların mütəmadi təmaslarının əhəmiyyətindən danışıb. Bildirilib ki, İordaniya xalqı Azərbaycana xüsusi münasibət göstərir və onun ölkəsi gələcəkdə Azərbaycanla əlaqələri daha da dərinləşdirmək niyyətindədir. Söhbət zamanı parlamentlərarası əlaqələrin bu günü, gələcək inkişaf perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Alman portalı ermənilər tərəfindən dağıdılmış kəndlər haqqında videoreportaj yayıb

Almaniyanın "Die Welt" qəzetinin onlayn platforması olan "welt.de" portalında Klemens Hirmke və Daniel-Dilan Bömerin müəllifliyi ilə "Mən qürurla geri dönəcəyəm" başlıqlı videoreportaj yerləşdirilib. AZƏRTAC xəbər verir ki, videoreportajda Azərbaycanın Tərtər rayonunun Şıxarx kəndi və ermənilər tərəfindən dağıdılmış Ağdam şəhərindəki vəziyyətdən bəhs olunur.

Bildirilir ki, Azərbaycanın Şıxarx kəndinin sakinləri bu kəndə 1993-cü ildə Dağlıq Qarabağdan qovulma nəticəsində köçüblər və hazırda qovulduqları ərazinin qonşuluğunda yaşayırlar. Kənd sakini Akif Əhmədov azərbaycanlıların kəndə köçməsindən sonra burada öz evlərini inşa etdiklərini bildirir. O, həmçinin son müharibə zamanı gözündən və əlindən qəlpə yarası alıb.

Digər kənd sakini Nəsibə Cabbarova ermənilər tərəfindən qovulan zaman bütün əmlaklarını tərk etdikləri ərazidə qoyub gəldiklərini və ermənilərin onların yurdunu zorla ələ keçirməyə cəhd etdiyini vurğulayır. O, həmçinin son müharibə zamanı ona məxsus evin ermənilərin raket hücumuna məruz qalmasından bəhs edir.

Şıxarx kəndinin sakinləri vətənlərinin işğaldan azad olunmasını məmnunluqla vurğulayır, sevinclə artıq qaçqın olmadıqlarını və geri qayıdacaqlarını bildirir, habelə buna görə Azərbaycan Ordusuna və Prezidentinə təşəkkür edirlər.

Qeyd olunur ki, 2020-ci ilin payız aylarında baş vermiş müharibə zamanı Azərbaycan 1993-cü ildə Ermənistan tərəfindən işğal olunmuş Ağdam şəhəri də daxil olmaqla, bir sıra ərazilərini geri qaytarıb. Əlavə olunur ki, bir zamanlar Ağdamda 28 min əhali yaşayıb. 10 noyabr 2020-ci il tarixində əldə olunmuş razılaşmanın şərtlərinə əsasən ermənilər şəhəri tərk etməli olub. Hazırda ərazi sıx şəkildə minalanıb və oradakı binalar dağıdılıb. Vurğulanır ki, ərazinin minalardan təmizlənməsi bir neçə il davam edəcək.

Videoreportajda Ağdam şəhərinin keçmiş sakini Məlahət Quliyeva doğma şəhərinin əvvəlki vəziyyəti barədə məlumat verir. O, yurd-yuvalarından qovulan zaman yaxın qohumlarından 8 nəfərin şəhid olduğunu, onlardan dördünün itkin düşdüyünü, dördünü isə dəfn edə bildiklərini qeyd edir.


WELT Abonnement Ticker Suche Meine Welt
HOME LIVE-TV MEDIATHEK WELTPLUS POLITIK WIRTSCHAFT SPORT PANORAMA WISSEN KULTUR MEHR PRODUKTE
HOME » POLITIK » AUSLAND » Nach Krieg und Zerstörung in Bergkarabach: „Ich werde stolz zurückkehren"

POLITIK AUSLAND

EUROPÄISCHE UNION CORONA-KRISE US-WAHL DONALD TRUMP

WELT+ NACH KRIEG IN BERGKARABACH

„Ich werde stolz zurückkehren"

Stand: 26.01.2021

Von Clemens Hirmke, Daniel-Dylan Böhmer

Akif und Nasiba flohen 1993 vor dem Krieg aus Bergkarabach. Seitdem lebten sie in einem zerstörten und trostlosen Dorf. Jetzt dürfen sie zurückkehren, doch ist dort ein normales Leben noch möglich? Die Geschichte zweier vom Krieg gezeichneter Menschen. (Video, 4 Min)

Bergkarabach: "Ich werde stolz zurückkehren"

Quelle: WELT

MEHR ZUM THEMA

# Azərbaycan və Rusiya XİN rəhbərləri arasında telefon danışığı olub

***Cari ilin 29 yanvar tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.***




Xarici İşlər Nazirliyindən (XİN) SİA-ya verilən məlumata görə, nazirlər bölgədə mövcud olan vəziyyəti və 10 noyabr 2020-ci il, 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər. Tərəflər, ikitərəfli münasibətlərin müxtəlif aspektləri, həmçinin beynəlxalq təşkilatlarda, o cümlədən BMT, ATƏT və digər çərçivələrdə əməkdaşlıq məsələləri üzrə fikir mübadiləsi aparıblar. Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

# Eldar Əzizov: Badamdardakı sürüşmə ilə bağlı tədbirlər planı hazırlanacaq



İlk növbədə ərazidə ekspertlər çalışıb rəsmi məlumat verməlidir. Bu sözügedən ərazidə ilk torpaq sürüşməsi deyil. "İki sahil" xəbər verir ki, bu sözləri Badamdarda sürüşmə zonasına gələn Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov deyib. O bildirib ki, ərazidə təhlükəsizlik tədbirlərinin görülməsi istiqamətində işlər aparılır: "Fövqəladə Hallar Nazirliyinin əməkdaşları və digər aidiyyəti qurumların mütəxəssisləri ərazidədir. FHN-nin nəznində xüsusi komissiya qrupu yaradılıb. Onlar məsələ ilə bağlı zəruri tədbirlər görəcəklər.

Bununla yanaşı tədbirlər planı hazırlanacaq. FHN-nin nümayəndələrinin də iştirakı ilə hazırlanacaq tədbirlər planı çərçivəsində dəymiş ziyanın hesablanması və digər məsələlər də öz əksini tapacaq".

# Qazimiz sosial ödənişlərlə və yüksək texnologiyalı protezlə təmin olunacaq

Müharibədə yaralanmış qazimiz sosial ödənişlərlə və yüksək texnologiyalı protezlə təmin olunacaq. Tarixi Zəfərimizin qəhrəmanlarından biri olan Kazımov Ziya Ağami oğlunun da sosial dəstəklə təmin olunması üçün işlər aparılır. ƏSSMN-dan SİA-ya verilən məlumata görə, Ziya Vətən müharibəsində ağır yaralanaraq sağ ayağını itirib. Bununla əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ona yaxın günlərdə əlillik və aylıq sosial ödənişlər təyin olunacaq. Həmçinin əlillik dərəcəsinə uyğun məbləğdə birdəfəlik sığorta ödənişi veriləcək.

Qazinin yüksək texnologiyalı protezlə təmin edilməsi də qərara alınıb. Bu məqsədlə Nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial



Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzində Ziyanın ilkin müayinəsi aparılıb, zəruri ölçülər götürülüb. Müəyyən hazırlıq müddətindən sonra o, yüksək texnologiyalı protezlə təmin ediləcək.

# Mövlud Çavuşoğlu: "Ermənistandan konstruktiv addımlar gözləyirik"

"Cənubi Qafqazda normallaşma region ölkələrinin xeyrinə olacaq". Bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu iranlı həmkarı Cavad Zərriflə mətbuat konfransında deyib. Nazir bildirib ki, bu normallaşmadan ən çox Ermənistan və Ermənistan əhalisi faydalanacaq. "Dolayısı ilə Ermənistanın bu istiqamətdə konstruktiv addımlar atmasını gözləyirik", - deyə XİN başçısı vurğulayıb.



"Hamımız bu atəşkəsin davamlı olmasını istəyirik. Sadəcə istəmək kifayət etmir, töhfə vermək lazımdır. Azərbaycan Prezidenti İlham Əliyevin təklifi və Rusiya və Türkiyə prezidentlərinin dəstəyi ilə "3+3" formatında Cənubi Qafqazla bağlı əməkdaşlıq planlaşdırılır. Cavad Zərif Türkiyədən əvvəl Azərbaycan, Rusiya, Ermənistan və Gürcüstana səfər edərək bu məsələ ilə bağlı fikir mübadiləsi aparıb", - deyə XİN başçısı vurğulayıb.

# Qarabağın tarixi qayıdışı

## "Qarabağ Dirçəliş Fondu"nun yaradılması bu reallığın təsdiqidir

***Bu gün işğaldan azad olunan bütün ərazilərimizdə yenidənqurma işlərinin aparılması, sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat infrastrukturun yaradılması, öz doğma yurdlarına qayıdan vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün şəraitin təşkil edilməsi ən ümdə prioritet kimi qəbul edilib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Tezliklə bütün Qarabağda abadlıq, quruculuq, inkişaf başlayacaq".***



Bəli, 30 il həsrətində qaldığımız tarixi dədə-baba torpağımızın - Qarabağlımızın əvvəlkindən də daha gözəl bir diyara çevriləcəyi elə ilk qələbələrimizdən başlanıldı. Bir məqamı xüsusilə vurğulamaq lazımdır ki, ərazilər işğaldan azad olunduqca ermənilərin bizim torpaqlara talançılıq və dağıdıcılıqla məşğul olması da bir daha dünyaya sübut olundu. Qarabağın işğaldan azad olunması Azərbaycan iqtisadiyyatının genişlənməsinə və diversifikasiyasına töhfə olacaq. Çünki dövlətimizin başçısı dediyi kimi - "Qarabağ Azərbaycandır!".

İşğaldan azad edilən ərazilərimizdə artıq yeni infrastrukturun qurulmasına başlanılması onu göstərir ki, tarixi və əzəli torpaqlarımıza yenidən nəfəs gəlir, Talış və Suqovuşan kəndlərinə, Şuşa şəhərinə yeni avtomobil yollarının çəkilməsi böyük qayıdışın artıq başladığının əlamətlərindən biridir.

2021-ci il yanvarın 4-də Azərbaycan Prezidenti İlham Əliyevin "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Fərmanı Qarabağın tarixi qayıdışıdır. Qeyd edək ki, bu Fərman ölkənin ərazi bütövlüyünün bərpası dövlətimiz üçün beynəlxalq hüququn və milli-mənəvi dəyərlərin aliliyinin, 30 ilə yaxın bir müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin yenidən həyata qaytarılmasının, ölkənin siyasi-iqtisadi suverenliyinin güclənməsinin mühüm dayaqlarından biri olacaq. Həmçinin ən əsası isə, bu sənəd işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılması istiqamətində hər bir şəxsin göstərəcəyi dəstək tarixi qələbəmizə, qüdrətli və güclü Azərbaycan naminə milli birlik ideyasına, suveren və təhlükəsiz yaşamaq məqsədimizə mühüm töhfə olacağını təsdiq edir.

**Qarabağ Azərbaycandır! - Dəmir yumruğun 44 gündə qələbəsi**

Bəli, illər sonra Azərbaycanın Müzəffər Ordusu düşmənin başına dəmir yumruğunu endirərək Qarabağı işğalçılardan təmizlədi. 30 illik münaqişə 44 gündə Azərbaycanın haqlı qələbəsi ilə bitdi. Qeyd edək ki, torpaqlarımız azad olduqca müharibə getməsinə baxmayaraq işğaldan azad olunan torpaqlarımızda abadlıq işləri aparılır.

Bəli, 17 illik hakimiyyəti dövründə Prezident, Müzəffər Ordumuzun Ali Baş Komandanı İlham Əliyev dediyini etdi, Qarabağı Azərbaycana qaytardı. Azad olunmuş ərazilərə səfərləri zamanı Prezident bildirib ki, tezliklə bu torpaqlarda yeni şəhər və qəsəbələrin, infrastrukturların, sosial obyektlərin və müxtəlif müəssisələrin açılışlarını edəcək. Bu baxımdan da Prezident İlham Əliyevin işğaldan azad olunan torpaqlarımızın inkişafı ilə bağlı imzaladığı Fərman və Sərəncamları, o cümlədən "Qarabağ Dirçəliş Fondu" 30 il həsrətində olduğumuz torpaqlarımızda quruculuq işlərinin həyata keçirilməsində, Qarabağa layiqli həyatın qaytarılmasında mühüm rol oynayacaq və tarixi qələbəmizə, qüdrətli və güclü Azərbaycan naminə milli birlik ideyasına, suveren və təhlükəsiz yaşamaq məqsədinə mühüm töhfə olacaq.

**"Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik"**

Dövlət başçımızın dediyi kimi, biz qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq: "Biz gücümüzü bilirik. Dünya da bizim gücümüzü bilir. Biz nəinki öz ərazimizdə, istəsəydik Ermənistan ərazisində istənilən hərbi əməliyyatı tamamilə yerinə yetirə bilərdik. Bu gün də yerinə yetirə bilərik. Ermənistan tərəfi də bunu bilir. Sadəcə olaraq, biz həmişə beynəlxalq hüquqa hörmətlə yanaşmışıq və həmişə demişəm ki, bizim başqa ölkələrin torpaqları ilə işimiz yoxdur. Biz öz torpağımızda yaşamalıyıq, yaşayacağıq, düşməni öz torpağımızdan qovmuşuq, bütün bu bölgəni bərpa edəcəyik".

Bəli, Ermənistanı diz çökdürən qalib Azərbaycan işğaldan azad olunmuş bütün şəhər və rayonlarını, kənd və qəsəbələrini yenidən quracaq. Ermənistan isə tarixi boyu Azərbaycanın dəmir yumruğunun ağrısını başında hiss edəcək.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev dəfələrlə işğaldan azad edilən yaşayış məntəqələrimizdə artıq yeni dövr başladığını diqqətə çatdıraraq, hazırda bu ərazilərdə acınacaqlı vəziyyətin hökm sürdüyünü, yaşayış məntəqələrinin xarabalığa çevrildiyini, hətta evlərin pəncərə çərçivələrinin belə oğurlandığını, infrastrukturun tamamilə dağıdıldığını, salamat bir bina belə saxlanılmadığını, yerüstü və yeraltı sərvətlərin talan edildiyini, tarixi-dini abidələrin barbarcasına yerlə-yeksan edildiyini bildirib. Dövlətimizin başçısı, eyni zamanda, xatırladıb: "Biz bu torpaqları, bu şəhərləri, bu kəndləri bərpa edəcəyik. Ermənilər hesab edirdilər ki, bu dağıntılardan sonra heç vaxt Azərbaycan əhalisi bu torpaqlara qayıtmayacaq. Səhv etdilər. Onlar bilmirlər ki, Azərbaycan xalqının ürəyində - bizim xalqımızın qəlbində doğma torpaqlar əbədi yaşayır və yaşayacaq. Bizim bütün köçkünlərimiz bu illər ərzində bir arzu ilə yaşayıblar ki, öz doğma torpaqlarına qayıtsınlar, dövlətin dəstəyi və köməyi ilə orada özləri üçün yeni həyat qursunlar".

Göründüyü kimi, Prezident İlham Əliyev tarixi ədaləti dəmir yumruqla bərpa etdi. Bu gün Vətən müharibəsi zamanı işğalçı Ermənistan tərəfindən mülki əhaliyə və dövlət əmlakına dəymiş ziyanın aradan qaldırılması üçün bütün qüvvələr səfərbərliyə alınıb. Tezliklə dəymiş hər bir zərər aradan qaldırılacaq, evlər və infrastruktur bərpa olunacaq, həyat tamamilə öz məcrasına qayıdacaq. Bu istiqamətdə imzalanan sərəncamlar bir daha göstərir ki, Prezident İlham Əliyev hər zaman öz vətəndaşının yanındadır.

Bir sözlə, bu gün artıq Azərbaycan yeni reallıq yaratdı, Ermənistanın kapitulyasiyası oldu. Bəli, sentyabrın 27-də Ermənistanın törətdiyi təxribata atekvat cavabı olaraq Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Sübut edil keçirilən çoxsahəli, çoxşaxəli və davamlı islahatlar istər Dünya Bankı, istərsə də digər nüfuzlu beynəlxalq qurumlar tərəfindən izlənilir və qiymətləndirilir. Bütün bunlar Azərbaycanın dünyanın sayılıb-seçilən ölkələrindən olduğunu bir daha təsdiqlədi ki, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

**RƏFİQƏ KAMALQIZI**

## Bu şəxslər barədə vahid informasiya bazası olacaq



Nazirlər Kabinetinin 2021-ci il 28 yanvar tarixli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası" əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanacaq yeni reyestr əlilliyi müəyyən edilmiş şəxslər barədə ölkə üzrə vahid informasiya bazasını formalaşdıracaq.

Qurumdan verilən məlumata görə, əsas məqsəd əlilliyi olan şəxslər barədə belə bir informasiya bazasının yaradılması ilə müvafiq məlumatların uçotu və təhlillərinin aparılması, əlillik sahəsində xidmətlərin keyfiyyətinin artırılmasıdır. Məlumat bazasında əlilliyi olan şəxslərin fərdi məlumatları, əlilliyinə, sosial müdafiə tədbirləri ilə əhatə olunmasına, sosial ödənişlə, reabilitasiya xidmətləri və vasitələri ilə təminatına, peşə-əmək qabiliyyətinin itirilməsi faizinə, məşğulluq vəziyyətinə, məşğulluq tədbirlərinə cəlb olunmasına və s. dair bütün məlumatlar əhatə olunacaq.

## Strateji valyuta ehtiyatlarımız 51 milyard dolları ötüb



Azərbaycanın strateji valyuta ehtiyatları yanvarda 0,1% artaraq 51,4 mlrd. ABŞ dollarına çatıb. Bu barədə faiz dəhlizinin parametrlərinə dair onlayn mətbuat konfransında çıxış edən Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov deyib. Onun sözlərinə görə, strateji valyuta ehtiyatları manatın stabil məzənnəsinə əsas dəstəyi verir.

## Şuşa və Hadrutun topoqrafik xəritəsi hazırlanır



İşğaldan azad olunan ərazilərdə monitorinqlər üçün ən müasir cihazlardan ibarət səyyar laboratoriya əldə olunub. "İki sahil" xəbər verir ki, bunu işğaldan azad olunmuş ərazilərdə ekoloji durum, görülmüş və görüləcək işlərlə bağlı mətbuat konfransında Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Firdovsi Əliyev deyib. Nazir müavini bildirib ki, Şuşa və Hadrutla bağlı topoqrafik xəritə hazırlanır.

## İctimai nəqliyyatla bağlı qadağanın müddəti uzadıldı

Bütün ölkə ərazisində şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyətinə tətbiq olunan məhdudiyyətin müddəti martın 29-dək uzadılıb. Bu, Nazirlər Kabinetinin müvafiq qərarında əksini tapıb.

Qərara əsasən, 2021-ci il 30 yanvar saat 00:00-dan 1 fevral saat 06:00-dək, 6 fevral saat 00:00-dan 8 fevral saat 06:00-dək, 13 fevral saat 00:00-dan 15 fevral saat 06:00-dək, 20 fevral saat 00:00-dan 22 fevral saat 06:00-dək, 27 fevral saat 00:00-dan 1 mart saat 06:00- 2 dək, 6 mart saat 00:00-dan 8 mart saat 06:00-dək, 13 mart saat 00:00-dan 15 mart saat 06:00-dək, 20 mart saat 00:00-dan 22 mart saat 06:00-dək, 27 mart saat 00:00-dan 29 mart saat 06:00-dək ictimai nəqliyyatın hərəkəti dayandırılmalıdır. Bu Qərar 2021-ci il yanvarın 30-dan qüvvəyə minir.

# Bizim hədəfimiz Şuşa idi, zəfərimiz də Şuşa oldu

*İşğaldan azad edilmiş ərazilərdə dini, tarixi abidələrin bərpasında müsəlman dövlətlərinin iştirakı İslam həmrəyliyinin sarsılmazlığıdır*

"Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik. Bütün dünyaya gücümüzü sübut etdik, göstərdik, düşmənin başını əzdik. Düşməni məcbur etdik ki, qabağımızda diz çöksün, kapitulyasiya aktına imza atsın. Belə də oldu və alçaldıcı kapitulyasiya aktı tarixdə əbədi qalacaq. Bütün dünya bizim Qələbəmizdən danışır" söyləyən Prezident İlham Əliyevin sözləri ermənilərin "Şuşanı biz vermişik" yalanlarına cavabdır.



44 gün davam edən İkinci Qarabağ savaşının XXI əsrin müharibəsi adlandırılması o deməkdir ki, döyüşün hər günü tarixə zəfər günü kimi yazıldı. Düşmənə sarsıdıcı zərbələr endirən Milli Ordumuzun əsgərləri sona qədər gedərək düşməni torpaqlarımızdan qovdu. Noyabrın 10-da işğalçı kapitulyasiya aktını imzalamağa məcbur edildi.

"Bu müharibə bizim tariximizdə əbədi yaşayacaq. Bu müharibəni biz şəhidlərimizin canı, qanı bahasına, hərbçilərimizin şücaəti hesabına qazanmışıq" söyləyən Prezident İlham Əliyevin sərəncamları ilə müharibədə qəhrəmanlıq göstərmiş minlərlə hərbçinin "Vətən Müharibəsi", "Zəfər", "Qarabağ" ordenləri, digər medallarla təltif olunmasi Vətən yolunda şəhid olmuş hərbçilərimizin rəşadətinə verilən dəyər, ümumxalq ehtiramıdır.

Cəbrayıl, Füzuli, Xocavənd, Suqovuşan, Hadrut, Murovdağ, Laçın, Qubadlı, Zəngilan, Şuşa...Azərbaycanın müstəqillik, qəhrəmanlıq salnaməsinə yazılan zəfər səhifələridir. Xeyirin şər üzərində qələbəsi olan bu müharibədə qalib gələn Azərbaycan əsgəri ermənilərin belini qırdığı kimi, fateh ordunun döyüşçüsü olduğunu da təsdiqlədi. Bu torpaqlarda əbədi yaşamaq haqqını bərpa etdi. "Biz Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirməliyik və çevirəcəyik. Mən bu sözü vermişəm və bu sözümü də icra edəcəyəm" söyləyən Prezident İlham Əliyev verdiyi vədi yerinə yetirərək işğaldan azad olunan ərazilərin bərpasına özü nəzarət edir.

Bütünlükdə türk dünyası üçün dəyərli olan Şuşa da həqiqi sahiblərinə qaytarıldı. Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında apardığı etnik təmizləmə siyasətini pisləyərək, xalqımıza məxsus tarixi-mədəni irsin, İslam abidələri və məscidlərimizin dağıdılmasını bəşəri cinayət adlandıraraq mövqelərini Zirvə görüşlərinin yekun bəyanatlarında rəsmən təsdiqləyən beynəlxalq təşkilatlar, Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığını bildirən müsəlman ölkələri erməni vandallarının işğal etdikləri ərazilərdə dini ocaqlarda törətdikləri vəhşilikləri bəşəri cinayət adlandırırlar.

İSESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdikdən sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş direktoru Bağdad Amreyev ilə videoformatda görüşün keçirilməsi göstərdi ki, İslam aləminin ayrılmaz parçası olan Azərbaycana maraq və dəstək hər zaman aktualdır. Azərbaycanın işğal olunmuş ərazilərində olan, orada gördükləri mənzərədən dəhşətə gələn beynəlxalq təşkilatların, səfirliklərin, müsəlman ölkələrinin nümayəndələri Ağdamı "Qafqazın Xirosiması"" adlandıran, Füzulinin, Zəngilanın, Cəbrayılın, Qubadlının viran qoyulmuş mənzərəsindən dəhşətə gələn jurnalistlər erməniliyin mahiyyətini gördülər. Həmin mahiyyət terrorçuluqdan, barbarlıqdan, qaniçənlikdən, vəhşilikdən, insanlara nifrətdən qaynaqlanır. Qafqazın incisi, Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya səfəri zamanı qədim şəhərin əvvəlki simasına qaytarılacağını bildirən Prezident İlham Əliyev onu da vurğulayır ki, dini abidələrin bərpasında, quruculuq işlərində müsəlman ölkələrinin iştirakı İslam həmrəyliyinin nümunəsidir. İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsində, yol infrastrukturunun inşasında Türkiyə şirkətlərinin iştirakı ilə bağlı razılaşmalar dostluq və birliyin əbədiliyini göstərir. Türk Şurasının Baş katibinin müharibə dövründə dəfələrlə ölkəmizin ərazi bütövlüyünü və suverenliyini, onun sərhədlərinin toxunulmazlığını dəstəkləyən, Gəncə şəhərinin ballistik raketlərlə bombalanmasını pisləyən bəyanatla çıxış etməsi çətin vaxtda xalqımıza mənəvi-siyasi dəstək idi. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında da müsəlman ölkələrinin rolu böyük olmuşdur. Müsəlman ölkələrinin azad edilmiş ərazilərdə aparılan bərpa işlərində iştirakı əlaqələri daha da genişləndirəcək.

"Buna görə də fikrimcə, əlbəttə, bu mövzu Türk Şurası çərçivəsində müzakirə ediləcək. Biz baş verənləri təhlil edəcəyik və gələcək üçün planlar quracağıq. Lakin artıq əminliklə deyə bilərəm ki, ərazilərin bərpası prosesi də bizə qardaş olan ölkələr tərəfindən dəstəklənəcək" söyləyən Prezident İlham Əliyev onu da bildirir ki, tarix və mədəniyyət abidələrinin bərpasında TÜRKSOY-un fəal dəstəyinə ümid edirəm və buna əminəm. Bu məsələlərin həllini nəzərdə tutan, 2020-2025-ci illər üçün türk strategiyasının və 2020-2040-cı illər üçün türk dünyası barədə təsəvvürləri əks etdirən sənəd artıq hazırdır. ICESCO-nun Baş katibinin Şuşanın İslam mədəniyyətinin paytaxtı elan edilməsi, Türk Şurasının Baş katibinin Şuşanın Türk dünyasının mədəniyyət paytaxtı seçilməsi ilə bağlı təklifləri İslam həmrəyliyinin ifadəsidir. Azərbaycana olan maraq təsadüfi deyil. Şuşanın əvvəlki görkəminə qaytarılacağını bildirən Prezident İlham Əliyevin "Xarı bülbül"" festivalının keçirilməsi, dahi şair Vaqifin məqbərəsinin bərpa olunması, Vaqif poeziya günlərinin təşkili ilə bağlı göstərişlərinin əsasında da milli ruha, mənəvi dəyərlərə bağlılıq duyğuları əks olunur.

Mədəniyyət paytaxtımız olan Şuşanın dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsini ən önəmli vəzifə kimi qarşıya qoyan, "Demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq və qaldırıldı. Demişdim ki, Şuşasız qələbəmiz yarımçıq olacaq və o vaxt müharibə dövründə bundan artığını deyə bilmirdim. Çünki müharibənin aparılmasının məxfiliyi gözlənilməli idi. Müharibənin ilk günlərindən biz bilirdik ki, hədəfimiz nədir və Şuşaya doğru uğurla irəliləyirdik" söyləyən Prezident İlham Əliyev Şuşaya təyin olunan xüsusi nümayəndə Aydın Kərimovla videoformatda keçirdiyi görüşdə məqsəd və məramı bir daha açıqladı: "Hədəfimiz Qarabağın tacı olan Şuşa idi və noyabrın 8-də Azərbaycan bayrağı Şuşada qaldırıldı. Ondan sonra düşmən diz çökdü, təslim oldu, ağ bayraq qaldırdı. Biz Kəlbəcər, Laçın, Ağdam rayonlarını bir güllə atmadan geri götürdük. Bizim hədəfimiz Şuşa idi, zəfərimiz də Şuşa oldu. Şuşanın azad olunması günü Zəfər günü elan edildi."

Şuşanın erməni əsirliyindən azad olunmasını tam qələbəmiz kimi dəyərləndirən Prezident İlham Əliyevin "O vaxt demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq. Bu gün isə deyirəm ki, biz hamımız, bütün xalqımız Şuşanı dirçəldəcəyik! Şuşa yenə də öz tarixi simasını bərpa edəcəkdir" sözləri Böyük Qayıdışa çağırış, İslami birliyin sarsılmaz nümunəsidir.

***Xuraman İsmayılqızı***

## 65 yaşdan yuxarı şəxslərin vaksinasiyasına başlanılır: Proses necə aparılacaq?



Fevral ayının 1-dən vaksinasiyaya cəlb olunacaq 65 yaşdan yuxarı şəxslərin siyahısı hazırlanır. Bunu Trend-ə açıqlamasında 1 saylı Şəhər Poliklinikasının baş həkimi Kubra Cabbarova deyib. Onun sözlərinə görə, yaxın günlərdə həmin şəxslərə sahə həkimi tərəfindən zənglər olunacaq:

"Könülü halda poliklinikaya gələcək şəxslərin özləri ilə tibbi kartlarını gətirmək xahiş olunacaq. Onlar vaksinasiya olunmadan əvvəl həkim müayinəsindən keçəcəklər. Belə ki, yaşları 65-dən yuxarı olan insanlarda xroniki xəstəlik ola bilər və qış ayları olduğu üçün sərtləşmə qeydə alına bilər. Ona görə həkim rəyi olmadan onlara vaksin vurulmayacaq, sahə həkimi icazə verəndən sonra onu vaksinasiya otağına alacağıq".

## "İxrac təşviqinin ödənilməsi" mexanizmi: Qeyri-neft ixracı ondan yararlana bildimi?



Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun prezidenti vəzifəsini icra edən Yusif Abdullayev qurumun fəaliyyət, "Made in Azerbaijan" brendinin təşviqi istiqamətində görülən işlər və qarşıda duran vəzifələrə dair onlayn formatda mətbuat konfransında deyib ki, "ixrac təşviqinin ödənilməsi" mexanizminin tətbiqi 2020-ci ilin 31 dekabr tarixindən başa çatdırılıb. Ümumilikdə indiyədək daxil olan 3297 müraciət əsasında, 3214 məktub-sərəncam verilib, 153 sahibkarlıq subyektinə 27 milyon manatadək ixrac təşviqi ödənilib.

Qeyri-neft məhsullarının ixracının ümumi ixracda xüsusi çəkisinin artırılması məqsədilə sahibkarlara ixrac təşviqinin ödənilməsi Azərbaycan Respublikası Prezidentinin "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 1 mart 2016-cı il Fərmanında öz əksini tapıb.

Bu Fərmanın icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti 6 oktyabr 2016-cı il tarixli Qərarı ilə "Qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac təşviqinin ödənilməsi Qaydası"nı, "İxrac təşviqi şamil olunacaq qeyri-neft məhsullarının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə Siyahısı"nı və "Məhsulların növündən asılı olaraq ixrac təşviqinin baza məbləğinə tətbiq olunacaq Əmsallar"ı təsdiq edib. Qeyd edək ki, 2016-cı il 6 oktyabr tarixli qərarında dəyişikliklər edilməsi barədə Nazirlər Kabinetinin 2018-cı il 25 iyun tarixli qərarı qəbul olunub.

Nazirlər Kabinetinin müvafiq qərarı ilə ixrac təşviqinin ödənilməsi qaydası, baza məbləğinə tətbiq olunan əmsallar və ixrac təşviqi aid olan qeyri-neft məhsullarının siyahısına əsasən, quş yumurtası, təbii bal, qabığı təmizlənmiş, həmçinin emal olunmuş fındıq, xurma, nar, zeytun yağı, unlu qənnadı məmulatları, qurudulmuş meyvələr, konservləşdirilmiş meyvə və tərəvəzlər, onlardan şirələr, alkoqollu və alkoqolsuz içkilər, Naftalan mazı, təbii dəridən geyim əşyaları, ayaqqabı və digər məmulatlar, əllə toxunmuş xalçalar, ipək parçalar, pambıq ipliyindən geyim əşyaları, ləvazimatları və digər hazır toxuculuq məmulatları ixrac təşviqi şamil olunan mallara aid edilir. İxrac təşviqinin baza məbləği ixrac olunmuş məhsulların dəyərinin 3 faizini təşkil edir və ona 1-2 arasında dəyişən əmsallar tətbiq edilməklə ödənilir. Yəni, ixrac olunmuş malın gömrük dəyərinin 3-6 faizi ixracatçıya ödənilir. Məsələn; əgər ixracatçı 100 min manat ekvivalentində meyvə-tərəvəz məhsulu ixrac edibsə, ona 3 min manat, eyni məbləğdə təbii üzüm şirəsi ixrac edildiyi halda isə, 6 min manat vəsait ödənilir.

Bununla da ölkə ərazisində istehsal edilən və istehsal prosesində istifadə olunan yerli komponentlərin, qeyri-neft məhsullarının dəyərindən, habelə ixrac olunan məhsulların növündən asılı olaraq, qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqi ödənilir.

Sözügedən mexanizmin 2016-cı il martın 1-dən qüvvəyə minməsini və 2020-ci ilin dekabrın 31-dək qüvvədə olmasını nəzərə alanda, onun qeyri-neft ixracına nə dərəcədə təsir göstərməsi də maraqlıdır.

2015-ci ildə Azərbaycanın qeyri-neft ixracının 1 milyard 581,2 milyon manat olmasını nəzərə alanda, 2020-ci ildə bu göstərici 1,9 milyard dollar çatıb- 20 faiz artıb. Ayrı-ayrı illərdə isə 2016-cı il ildə 16,4 faiz, 2020-ci ildə 5,2 faiz azalma, 2017-ci ildə 24 faiz, 2018-ci ildə 10 faiz, 2019-ci ildə 15,7 faiz artım olub.

Qeyri-neft sektorunun ixracdakı payına gəlincə, 2015-ci ildə bu nisbət 10 faiz olmuşdusa, 2020-ci ildə həmin göstərici 13,8 faiz təşkil edib. Ayrı-ayrı illərdə ümumi ixracın 2016-cı ildə 13,5 faizi, 2017-ci ildə 11 faizi, 2018-ci ildə 8,7 faizi, 2019-cu ildə isə 9,95 faizi qeyri-neft sektorunun payına düşüb.

Bir sözlə, "ixrac təşviqinin ödənilməsi" mexanizminin qüvvədə olduğu müddətdə qeyri-neft ixracında ən yüksək rəqəm 2019-cu ildə (1 milyard 954 milyon dollar), ümumi ixracda payının ən yüksək səviyyəsi isə 2020-ci ildə qeydə alınıb. Bu illərdə qeyri-neft ixracında əsas yeri pomidor, qızıl, pambıq lifi, qabığı təmizlənmiş meşə fındığı kimi məhsullar tutub. Hətta pandemiyanın mənfi təsirləri fonunda ötən qeyri-neft ixracında ümumi azalma olsa da, onların ixracında nəinki azalma, əksinə artım olub. Bu məhsulların ixracındakı artım qeyri-neft ixracındakı daha böyük azalmanı kompensasiya edib. "İxrac təşviqinin ödənilməsi" mexanizmi isə belə məhsulları əhatə etməyib.

***Ceyhun Piriyev***

# Vüqar Rəhimzadə: Xalqımız yaxşı bilir ki, torpaqlarımızı satan kimdir, onu əsarətdən qurtaran kimdir



*“Dövlət o zaman güclü olur ki, ona rəhbərlik edən lider ölkəsinin, xalqının gələcəyini düşünür, bu istiqamətdə təkmil strategiya müəyyənləşdirərək onun həyata keçirilməsinə nail olur. Müstəqillik yollarında ilk addımlarını atan ölkənin inkişafında idarəçilik qabiliyyətinin, zəngin təcrübənin nə qədər əhəmiyyətli rol oynadığının geniş şərhə ehtiyacı yoxdur. Bu baxımdan Azərbaycanın müstəqilliyimizin ilk illərində yaşadığı əsas problemlər idarəçiliyin yoxluğu, mövcud iqtisadiyyatı məhv etmək, ölkədə siyasi və silahlı anarxiyaya rəvac vermək, bir sözlə, o illərdə iqtidarda olanların şəxsi mənafelərini ümumi mənafelərdən üstün tutmaları idi desək qətiyyən mübaliğəyə yol vermiş olmarıq.*

44 günlük İkinci Qarabağ müharibəsi bütün bu reallıqlara bir daha işıq saldı, torpaqları satanların, onları işğaldan azad edənlərin kimlər olduğunu ortaya qoydu.”

Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, xəyanətkarların, satqınların toplaşdığı “milli şura” deyilən qurum sanki Azərbaycanda Ermənistanın səfirliyi, Əli Kərimli və onun kimilər isə Ermənistanın səfiri funksiyasını yerinə yetirir: “Vaxtilə torpaqlarımızı satan AXC-Müsavat cütlüyünün tör-töküntülərindən ibarət olan bu qurum yarandığı vaxtdan xalqa, dövlətə xəyanət yolunu tutub. Bu antimilli ünsürlərin davranışları hazırda Azərbaycanın hərbi-siyasi Qələbəsini həzm edə bilməməklə ermənilərin və ermənipərəst dairələrin sifarişlərinin icraçısı olduqlarını, onlar üçün hələ də dövlət, xalq, Vətən məfhumlarının arxa planda dayandığını tam çılpaqlığı ilə ortaya qoyur. AXCP sədri Əli Kərimli xəyallar aləminə səyahətə çıxarkən hakimiyyətə yenidən gələcəkləri təqdirdə hansı planları gerçəkləşdirəcəklərini açıqlamaqla xalqa bir daha birillik hakimiyyətləri dövründə törətdikləri faciələri xatırlatdı. Gəncləri Vətənə xəyanət ruhunda tərbiyə etməyə çalışan Əli Kərimlinin əlində alətə çevirdiyi bu tip olaylar hər kəsin yaddaşındadır. Xəyanətkar sədrin ssenarisi əsasında Vətənə xəyanət yolunu tutan, Ermənistanın xüsusi xidmət orqanlarının əməkdaşları ilə görüşüb əldə edilən razılaşma əsasında alacağı pullarla özünə təmtəraqlı həyat quracağını düşünənlər törətdikləri cinayətlərə görə həbs olunur, həbsdən çıxdıqdan sonra onların Ə.Kərimli haqqında etirafları hər kəsdə belə bir ünsürün özünü Azərbaycan vətəndaşı kimi təqdim etməyə haqqı olmadığı qənaətini təsdiqləyir.”

Baş redaktor bildirib ki, dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev hər bir çıxışında, xalqa müraciətlərində torpaqlarımızın işğala məruz qalmasının səbəblərini xüsusi qeyd edir. Ölkə Prezidenti Qarabağın tacı olan Şuşamıza səfəri zamanı döyüşçülərlə görüşündə, həmçinin Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bu mühüm məqamı xüsusi diqqətə çatdırmışdır ki, tarixi həqiqətlər ölkə və dünya ictimaiyyətinə dolğun şəkildə çatdırılmalı, hər kəs bu həqiqətləri bilməlidir. Bu tarix hər kəsə məlumdur ki, 1992-ci ilin mayında o vaxtkı Azərbaycan rəhbərliyinin və hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa işğal altına düşdü. O vaxt ermənilərin öz dırnaqarası əməliyyatlarına “dağlarda toy” adını verdiyini xatırladan dövlətimizin başçısı İlham Əliyevin bildirdiyi kimi, halbuki heç əməliyyat da keçirilməmişdi. Şuşa şəhəri boşaldılmışdı: “O vaxtkı müdafiə naziri demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam, qorxaqcasına Şuşadan qaçmışdı. Ondan sonra isə ermənilər guya bu əməliyyat haqqında əfsanələr uydurmuşdular - dağlarda toy. İndi biz onlara elə toy tutmuşuq ki, onlar bu dərsi əbədi yadda saxlayacaqlar. Qəhrəman Azərbaycan övladları mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır.”

“Bədnam AXC-Müsavat cütlüyünün digər sahələr kimi, orduda yaratdığı acınacaqlı hal da yaddaşlardadır” söyləyən V.Rəhimzadə əlavə edib ki, həmin vaxt ordunun maddi-texniki təminatı yox dərəcəsində idi, eyni zamanda, əsgərlərin döyüş ruhunu artırmaq üçün arxa cəbhədə milli birlik də təmin edilməmişdi. Ön cəbhədə döyüşlərin getdiyi bir vaxtda arxa cəbhədə vəzifə davası aparılır, silahlı qruplaşmalar arasında açıq silahlı mübarizə gedirdi: “Dağınıq vəziyyətdə olan Silahlı Qüvvələrimiz torpaqlarımızın müdafiəsinə deyil, ayrı-ayrı qrupların maraqlarının müdafiəsinə xidmət edirdi. Cəbhədə döyüşlərin getdiyi vaxt Surət Hüseynovun, İsgəndər Həmidovun, Rəhim Qaziyevin və başqalarının silahlı dəstələrinin paytaxtı hərbi poliqona çevirdiklərini xalq unutmayıb. Nəticədə erməni silahlı birləşmələri Dağlıq Qarabağla birgə ətraf yeddi rayonu da işğal etməyə nail oldular”. Budur bu gün özlərini xalqa, dövlətə canıyanan kimi göstərməyə çalışan ünsürlərin əsl siması. Dövlətimizin başçısı İlham Əliyev 44 günlük Vətən müharibəsi dövründə xarici KİV-lərə müsahibələrində daim Birinci Qarabağ müharibəsi dövründəki Azərbaycanla bugünkü Azərbaycanın müqayisəsini apararaq bu fikri böyük fəxr və qürurla qeyd edirdi ki, hazırkı Azərbaycan bütün sahələrdə davamlı uğurlara imza atan, dünya birliyinin fəal üzvünə çevrilən, sözünün imzası qədər dəyəri olan Azərbaycandır. Bu müddət ərzində Azərbaycan daha da gücləndi, beynəlxalq hüquq deyilən məfhumun mövcudluğunu dünyaya çatdırdı. Azərbaycan Prezidenti İlham Əliyev dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının tribunasından bəyan edirdi ki, bir qarış torpağımız belə düşmənə verilməyəcək. Biz imkan verməyəcəyik ki, Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılsın. Dövlətimizin başçısı hər bir vədini yerinə yetirdi. Tarixi Qələbəmiz bir daha möhtərəm Prezidentimizin dövləti, xalqı üçün necə Lider olduğunu nümayiş etdirdi. Təbii ki, hər kəs tarixdə özünün əməlləri ilə iz qoyur. Azərbaycanın müstəqilliyinin ilk illərində ölkəmizə rəhbərlik edənlərin hakimiyyət dövrü tariximizdə qara səhifə kimi yer alsa da, 1993-cü ildən başlanan yol davamlı inkişaf yoludur. Çünki bu yolu düzgün müəyyənləşdirən Lider bütün həyatını, ömrünü Azərbaycan xalqının bugününə və gələcəyinə həsr etmişdir. 2003-cü ildən başlanan yol isə Heydər Əliyev yolunun davamıdır. Möhtərəm Prezidentimiz İlham Əliyev ərazi bütövlüyümüzü bərpa edərək, Dağlıq Qarabağ münaqişəsini tarixə qovuşduraraq ata vəsiyyətini, xalqımıza verdiyi hər bir vədi zamanı yetişəndə yüksək səviyyədə yerinə yetirməsi ilə qürur duyur.”

Baş redaktor bildirib ki, tarix heç nəyi silmir. AXC-Müsavat cütlüyünün tör-töküntüləri bu gün özlərini xalqa vətənpərvər kimi təqdim etməyə nə qədər çalışsalar da, bunun mümkünsüzlüyünün fərqindədirlər. Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin “Hər kəs bilməlidir, torpaqları satan kimdir, torpaqları əsarətdən qurtaran kimdir” çağırışı bu ünsürlərə ciddi mesaj, eyni zamanda, dərs olmalıdır.

# “National Geographic”dan Ağdamın dağıntılarını əks etdirən paylaşım



Dünya ölkələri və coğrafiyası ilə bağlı məlumatlar verən nüfuzlu “National Geographic” dərgisi Qarabağın işğaldan azad edilməsi ilə bağlı instaqram səhifəsində paylaşım edib. SİA xəbər verir ki, sözügedən paylaşımında bir vaxtlar 40 min əhalinin yaşadığı, bu yaxınlarda azad edilmiş Ağdam şəhərinin təxminən 30 il Ermənistanın işğalı altında qalması nəticəsində dağıntılar içində olduğu bildirilir. Qeyd edilir ki, 1993-cü ildə Ermənistan-Azərbaycan münaqişəsi zamanı Ağdam işğal olunduqdan sonra şəhərdə məsciddən başqa bütün tikililər dağıdılıb. Uzun sürən münaqişə bir milyondan çox insanın köçkün düşməsinə səbəb olub.

Paylaşımda o da diqqətə çatdırılır ki, ötən il sentyabr ayında başlayan hərbi əməliyyatlar 44 gün davam etdi və Rusiyanın vasitəçiliyi ilə əldə olunan sülh razılaşması ilə başa çatdı. Azərbaycan 1990-cı illərdə itirdiyi əraziləri geri qaytardı.

***Rövşən RƏSULOV***

# Zakir Həsənov və Hulusi Akar arasında telefon danışığı olub



Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovla Türkiyənin milli müdafiə naziri Hulusi Akar arasında telefon danışığı olub. “Report” Türkiyə KİV-inə istinadən xəbər verir ki, tərəflər Qarabağda atəşkəsə nəzarət edəcək və Ağdamda yerləşəcək Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi ilə bağlı fikir mübadiləsi aparıblar.

H.Akar Monitorinq Mərkəzinin formalaşdırılması istiqamətində işlərin tamamlandığını bildirib: “Mərkəzdə bir generalımız və 38 personalımız təmsil olunacaq. Mərkəzin atəşkəsin davamlılığı, sülhün və sabitliyin bərqərar olunmasına töhfə verəcəyinə inanırıq”.

# Birgə Monitorinq Mərkəzi bu gün fəaliyyətə başlayacaq



Qarabağda atəşkəsə nəzarət edəcək Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi yanvarın 30-da fəaliyyətə başlayacaq. Bu barədə “RİA Novosti” öz mənbələrinə istinadla məlumat yayıb. Ağdam rayonunda yerləşən Birgə Mərkəz pilotsuz uçuş aparatları vasitəsilə monitorinqlər həyata keçirəcək. Mərkəzə 60 Rusiya və 60 Türkiyə hərbçisi cəlb ediləcək.

# ETSN: Ermənilər ağacların kötüklərini də yandırıblar



“2 000 yaşı olan və ermənilərin məhv etdiyi Çinar ağacının bərpası necə olacaq?! Təbii ki, əkdiyimiz ağacların də sonrakı müddətdə 2 000 yaşı olacaq. Ağacların kəsilməsi bir yana, kötükləri də yandırıb məhv edirdilər. Bax bu, başa düşülən deyil”.

“Report” xəbər verir ki, bunu ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov işğaldan azad olunmuş ərazilərdəki ekoloji durum, görülən və görüləcək işlərlə bağlı keçirilən brifinqdə çıxışı zamanı deyib.

O qeyd edib ki, erməni vəhşiliyinə beynəlxalq təşkilatların münasibəti anlaşılan deyil: “Ümumilikdə işğaldan azad edilən ərazilərdə qiymətləndirilmə işləri mütəmadi aparılmalı və monitorinqlər davam etdirilməlidir”.

# Ermənistanda Paşinyanla bağlı növbəti qalmaqal!

### Paşinyanın diplomatik pasportu azərbaycanlıların əlinə necə keçib?



Ermənistanda baş nazir Nikol Paşinyanın diplomatik pasportunun "azərbaycanlının əlinə keçməsi" ətrafında qalmaqal qaldırılıb. Qalmaqalı sosial şəbəkələrdə Ermənistandan deportasiya edilmiş Qazaxıstan vətəndaşı, beynəlxalq məsələlər üzrə ekspert və "Orbeli" mərkəzinin keçmiş rəhbəri Andranik Ovanisyan qaldırıb. O, videomüraciət yayaraq bildirib ki, Qazaxıstanda yaşayan azərbaycanlıdan Paşinyanın adına diplomatik pasport sifariş verib və alıb.

### Andranik Ovanisyan Paşinyanın pasportunu necə əldə etdiyi haqda danışır...

Ovanisyan deyib ki, Mərkəzi Asiyada hazırda əllərində Ermənistan pasportu olan, erməni dilində danışan səkkiz etnik azərbaycanlı var. Videoda Ovanisyan diplomatik pasport nümayiş etdirir və orada baş nazir Nikol Paşinyanın adı, familiyası, fotoşəkli yer alır. Ovanisyanın dediyinə görə, azərbaycanlılar yeyib-içmək məclislərindən birində sərxoş halda onu çeçen hesab ediblər və Ermənistan pasportuna malik olduqlarını deyiblər. Pasportları haradan aldıqları barədə soruşanda isə onlar deyiblər ki, "məxməri" inqilabdan sonra Ermənistanın yüksək vəzifəli şəxslərindən informasiyalar alırlar. "Pasportlar məsələsində isə onlara Milli Təhlükəsizlik Xidmətinin rəhbəri Kərəmov (xidmətin artıq istefa vermiş keçmiş rəhbəri Arqişti Kərəmyan nəzərdə tutulur) kömək edir".

Andranik Ovanisyanın iddiasına görə həmin azərbaycanlılar ona pul əvəzində 2-3 həftə ərzində Ermənistan pasportu təşkil edə biləcəklərini deyiblər. Ovanisyan isə onlardan baş nazir Nikol Paşinyanın adına diplomatik pasport sifariş edib. Pasport böyük məbləğə başa gəlib və Qazaxıstandan olan etnik ermənilər öz aralarında pul cəmləyərək onu alıblar. Nəticədə 2020-ci il noyabrın 7-dən etibarən həmin pasport Ovanisyanın əlindədir. Bu videomüraciət sosial şəbəkələrdə geniş rezonans doğurub, bir çoxları Ovanisyanın danışdıqlarına inanmayıblar, pasportda imza yerinin boş olduğunu ona xatırladıblar.

Ermənistan XİN-in mətbuat katibi Anna Nağdalyan isə KİV-lərə bildirib ki, əslində Paşinyanın diplomatik pasportu noyabrın 10-da onun iqamətgahına basqın edən etirazçılar tərəfindən oğurlanıb. "Hökumət binasına hücum edənlər 14 diplomatik pasportu oğurlayıblar, onların arasında baş nazirin pasportu da olub. Pasportlar həmin gün ləğv edilib",-o deyib. Lakin oğurlanan pasprortun Qazaxıstanda yaşayan Ovanisyanın nümayiş etdirdiyi pasport olub-olmadığı dəqiqləşdirilmir.

# Laçın dəhlizində 15 erməni əsgəri əsir götürüldü!

***Ermənistan Müdafiə Nazirliyinin 15 hərbçisi əsir alınıb. Onlar Laçın dəhlizindən keçərək Əsgəran rayonuna çatmaq üçün mülki paltar geyiniblər və bu minvalla guya "adi vətəndaş"lar olduqlarını göstərməyə çalışıblar.***



Belə ki, erməni bloqer Vardan Qukasyanın verdiyi məlumata görə, tutulan ermənilər Ermənistan Müdafiə Nazirliyinin hərbi xidmətə çağırdığı şəxslər olublar. Ermənistanın Müdafiə Nazirliyi və habelə, erməni bloqerlər, Telegram-dakı erməni kanallar bu məlumatı "feyk" adlandırsalar da, Gorusda yaşayan ermənilər 15 erməni hərbçinin saxlandığını təsdiqləyiblər.

İrəvan-Gorus-Xankəndi marşrutunun Laçın rayonundan keçən hissəsi, yəni "Laçın dəhlizi" 6 kilometr uzunluğundadır. Noyabrın 9-dan 10-a keçən gecə Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli anlaşmaya görə, eni 5 km olan Laçın dəhlizi Ermənistanla qarabağlı ermənilər arasında nəqliyyat-kommunikasiya vasitəsi rolunu oynamalıdır.

"Laçın dəhlizi" Rusiya Federasiyasının Qarabağdakı sülhməramlı kontingentinin nəzarətindədir. Şuşanın yanından keçən İrəvan-Xankəndi marşrutu müvəqqətidir. Yaxın 3 il ərzində yeni marşrut çəkilməli və Laçın şəhəri dəhliz üçün ayrılmış 5 kilometrlik zolaqda qalmaq "məcburiyyət"indən qurtulmalıdır.

Eyni zamanda, Qarabağın rusiyalı sülhməramlıların nəzarətində olan hissəsində Ermənistan Müdafiə Nazirliyinin istisnasız olaraq, bütün hərbçiləri son nəfərədək çıxarılmalıdır.

Bu, üçtərəfli anlaşmanın 4-cü bəndində nəzərdə tutulub. Lakin Ermənistan anlaşmanın həmin bəndinə əməl etmir. Qarabağda hələ də minlərlə erməni hərbçi var və onlar dislokasiya yerlərini dəyişməyiblər. Ermənistanın Müdafiə Nazirliyi hələ də Qarabağda rusiyalı sülhməramlıların nəzarətində olan ərazilərə hərbçilər yollayır, onları rotasiya edir. 15 erməni hərbçisinin də mülki paltarda tutulması buna dəlalət edir.(Milli.Az)

# 86,4 milyondan çox insana COVID-19 peyvəndi vurulub



Yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiyanın başlandığı 60 ölkədə ümumilikdə 86,4 milyondan çox insana peyvənd vurulub. "Bloomberg" saytında yer alan məlumatda deyilir ki, tarixin ən böyük vaksinasiya kampaniyası çərçivəsində son göstəricilərə əsasən, gündəlik təqribən 4,19 milyon nəfərə vaksin vurulur.

Qeyd olunub ki, ABŞ-da vaksinasiyanın başlandığı 14 dekabr 2020-ci il tarixindən etibarən 27,3 milyondan çox insana peyvənd vurulub. Kütləvi vaksinasiya proqramı çərçivəsində Çində 23 milyon, Avropa İttifaqında 10,9 milyon, Böyük Britaniyada 7,9 milyon nəfərə peyvənd vurulub. Əhalinin vaksinasiyasının ən sürətli aparıldığı ölkə isə İsraildir. Bu ölkədə artıq 4,3 milyon nəfərə peyvənd vurulub ki, bu da ümumi əhalinin 48,03%-ni təşkil edir.

# Şəhid və qazi övladları üçün ödənişsiz mentorluq xidmətləri göstəriləcək

**Fransada fəaliyyət göstərən "Alim" elmi assosiasiyası "Fransada necə ali təhsil almaq olar?" mövzusunda vebinar təşkil edib. Diaspora İş üzrə Dövlət Komitəsinin məlumatında deyilir ki, tədbirin məqsədi Fransada ali təhsil almaq istəyən azərbaycanlı tələbələri məlumatlandırmaq və düzgün istiqamətə yönləndirmək olub. Xaricdə ali məktəblərə müraciət üzrə ixtisaslaşan mütəxəssislərin də iştirak etdiyi vebinarda Fransada ali təhsilin istiqamətləri, təqaüdlü və təqaüdsüz təhsil proqramları, eləcə də inzibati məsələlərdən bəhs edilib.**

Vebinarı giriş sözü ilə açan "Alim" elmi assosiasiyasının rəhbəri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Günel Səfərova qurumun fəaliyyət istiqamətlərindən danışaraq şəhid və qazi övladları üçün ödənişsiz mentorluq xidmətləri göstəriləcəyini nəzərə çatdırıb.

Assosiasiyanın üzvləri müxtəlif ixtisaslar üzrə seçimlər barədə ətraflı məlumat veriblər və izləyicilərin suallarını cavablandırıblar.

Vebinar assosiasiyanın sosial şəbəkə səhifələri üzərindən canlı yayımlanıb.

## "Republic Underground" portalı Cənubi Qafqazın perspektivlərindən bəhs edilən məqalə yayıb

"Republic Underground" xəbər portalında Belçika Azərbaycanlıları Mədəniyyət Mərkəzinin üzvü Aynur Bəşirovanın "Qarabağ müharibəsindən sonra Cənubi Qafqazın gələcəyi necə ola bilər" sərlövhəli məqaləsi dərc olunub.


What the future might look like for the S. Caucasus post Karabakh conflict
CC By 2.0
POSTED BY: RACHEL BROOKS JANUARY 21, 2021
What the Future Might Look Like for the South Caucasus After the End of the Nagorno Karabakh Conflict Between Armenia and Azerbaijan
Aynur Bashirova
January 21, 2021

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, yazıda Azərbaycan, Ermənistan və Rusiya arasında 2020-ci il 10 noyabr tarixli üçtərəfli sülh razılaşmasından sonra yaranmış mövcud vəziyyətdən və Cənubi Qafqazı, xüsusilə də Ermənistanı gözləyən perspektivlərdən bəhs olunub. Qeyd edilib ki, hazırkı durum ilk baxışda bir neçə ay əvvəl müharibədə Azərbaycana məğlub olmuş Ermənistan üçün kədərli görünə bilər. Lakin uzunmüddətli perspektivdə indiki vəziyyət Ermənistan, Azərbaycan və bütövlükdə region üçün ümidverici görünür. Nəqliyyat və iqtisadi əlaqələrin qurulması hər iki dövlətin xeyrinədir.

Müəllif xatırladıb ki, Birinci Qarabağ müharibəsində Ermənistan Azərbaycan torpaqlarını işğal edib müəyyən üstünlük qazansa da, iqtisadi imkanlar baxımından məğlub olmuşdur. Qafqazın digər iki ölkəsi - Azərbaycan və Gürcüstan enerji və nəqliyyatla əlaqədar çoxsaylı iqtisadi layihələr həyata keçiriblər. Bu layihələr hər iki ölkənin iqtisadi inkişafına müsbət təsir göstərib.

# Azərbaycanda əmək kitabçaları dövriyyədən çıxarılır



2020-ci ildə biz əmək münasibətləri və məşğulluq alt sisteminin yaradılmasına başladıq. SİA-nın məlumatına görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin sədri Mustafa Abbasbəyli "Rəqəmsal məşğulluğa keçid və aktiv məşğulluq tədbirləri: 2021-ci il üçün hədəflər" mövzusunda keçirdiyi mətbuat konfransında deyib.

M.Abbasbəyli bildirib ki, bu sistem ölkənin həm əmək qanunvericiliyinin, həm məşğulluq siyasətinin, həm də kitab inzibatçılığının böyük ölçüdə elektronlaşdırılmasına gətirib çıxaracaq:"Bu sistem bizə imkan verəcək ki, mərhələli şəkildə kağız əmək müqavilələrini ləğv edək, eyni zamanda əmək kitabçalarının dövriyyədən çıxarılmasını həyata keçirək. Bundan əlavə ezamiyyə vərəqələrini, kağız üzərində əmirləri, ştat cədvəllərini, digər kağız daşıyıcılarını ləğv edərək elektron müstəviyə çəkməyi nəzərdə tuturuq".

# Ermənistan tərəfindən əsir götürülən azərbaycanlılara qarşı işgəncə və pis rəftarla bağlı 8 hesabat beynəlxalq qurumlara göndərilib

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Almaniyanın ölkəmizdəki səfiri Volfqanq Maniq ilə görüşüb.***



Ombudsman Aparatının mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Səbinə Əliyeva Ombudsman institutunun çoxşaxəli fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib, rəhbərlik etdiyi qurumun ölkə Konstitusiyasına, milli qanunvericiliyə, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalara uyğun olaraq insan və vətəndaş hüquqları və azadlıqlarının müdafiəsi, təbliği, bərpası istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Ombudsman pandemiya dövründə əhalinin həssas qrupları, xüsusilə də əlilliyi olan şəxslərin hüquqlarının təmini və sosial müdafiəsi ilə bağlı müxtəlif dövlət qurumlarına müraciət ünvanladığını qeyd edib. S.Əliyeva fəaliyyəti dövründə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsinə xüsusi önəm verdiyini bildirib.

Müvəkkil 2020-ci ilin sentyabrından noyabrına qədər davam edən 44 günlük Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki obyektlərini hədəf alan raket hücumları nəticəsində dağıdılan ərazilərdə faktaraşdırıcı missiyalar həyata keçirdiyini, əldə olunan dəlil və sübutlar əsasında xüsusi hesabatların hazırlanaraq aidiyyəti beynəlxalq qurumlara göndərildiyini bildirib. Müharibə dövründə insan hüquqları pozuntuları ilə bağlı bu günədək 7 xüsusi hesabat hazırlandığını qeyd edən S.Əliyeva bu müddətdə Ermənistan tərəfindən əsir götürülən hərbçilərimizin, həmçinin 2014-ci ildən Ermənistanın girovluqda saxladığı soydaşlarımızın azad olunmalarından sonra işgəncə və pis rəftar hallarını araşdırmaq məqsədilə onlarla görüşdüyünü, əldə etdiyi məlumatlar əsasında 8-ci hesabatın hazırlanaraq aidiyyəti beynəlxalq qurumlara göndərildiyini bildirib.

Səfir V.Maniq öz növbəsində səmimi qəbula və təsisatın fəaliyyəti, görülən işlər ilə bağlı müfəssəl məlumata görə müvəkkilə təşəkkürünü bildirib. İnsan hüquqlarının səmərəli müdafiəsi, qanunun aliliyinin təbliği sahəsində Ombudsman təsisatı ilə əməkdaşlıq etməkdə maraqlı olduğunu bildirən səfir bu qurumun vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığa verdiyi diqqəti yüksək qiymətləndirərək bununla bağlı dəstəyini ifadə edib. Görüşdə bir sıra digər məsələlər müzakirə olunub.

# Azərbaycanın yeni tarixini yazan Qalib Lider

***İnsan həyatı o qədər də uzun deyil. Bu həqiqəti dərk etməyə başlayandan hər birimiz həyatımızın hər günündə bir sevinc işartısı axtarmağa başlamışdıq. Amma qəlbimizin dərinliyində bizi sızladan, gizli-gizli ağladan və həyatımızın böyük bir hissəsini yandırıb külə döndərən bir nisgil vardı - Qarabağ nisgili.***



*Həmid PƏNAHOV, YAP Qazax rayon təşkilatının sədri*

Vətən nisgili, itirilmiş torpaq ağrısı, aşağılanmış qürur acısı, övladlarımızın gözlərinə kişi kimi baxa bilməmək xəcaləti şürumuza, varlığımıza hakim kəsilmişdi. Amma bu nisgilə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın sözdə yox, əməldə, real və Məğlubedilməz Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başladığı gündən son qoyuldu. İlk gündən Ali baş Komandanımız xalqımıza qələbə müjdləsini çatdırdı. 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, Vətən müharibəsi şanlı qələbə ilə başa çatdı.

Noyabrın 8-də Azərbaycan xalqı heç zaman yaşamadığı sevinc və fəxarət hissini yaşadı, 30 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Bəli, Şuşaya nəzarət edən Azərbaycan Ordusu tarix yazdı. Arzumuz reallıq oldu. Şuşa azad edildikdən dərhal sonra noyabrın 9-u bayraq günündə Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yeksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini yenidən sevindirdi. Beləliklə də, Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi, onun bütün manevr imkanları puç oldu, ölkə və dünya ictimaiyyətini aldatmaq taktikası bütün anlamını itirdi. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı. Buna Ali Baş Komandan İlham Əliyev nail oldu.

Prezident İlham Əliyev beynəlxalq mediaya müsahibələrində, xalqa müraciətlərində, bir çox ölkələrin liderləri ilə telefon danışıqlarında Azərbaycanın haqq səsini dünyaya çatdırdı, ölkəmizin ədalətli və beynəlxalq hüququn ali prinsip və normalarına söykənən mövqeyini qətiyyətlə müdafiə etdi. Bütün dünya həqiqətləri məhz Azərbaycanın dövlət başçısından, ən etibarlı mənbədən əldə etdi. Azərbaycan işğalçı ölkənin və erməni diasporunun yalan təbliğatını, çirkin qara piar kampaniyasını dövlət başçısının qətiyyəti sayəsində darmadağın etdi. Beləliklə, 44 gün ərzində Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi.

Bu şanlı qələbəmiz Prezident İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyasının məntiqi yekunudur. Bu gün böyük fəxrlə qeyd edirik ki, Azərbaycan həm döyüş meydanının, həm də diplomatik müstəvidə aparılan mübarizənin qalibi kimi dünyanın diqqətindədir. Dövlətimizin başçısı, Silahlı Qüvvələrimizin Ali baş Komandanı İlham Əliyev tarixi qələbə müjdəsini xalqa çatdırarkən bir daha bəyan etmişdir ki, 30 ilin əziyyəti, 30 ilin ümidsizliyi, 30 ilin əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq, dedik ki, artıq yetər, biz bu işğala dözməyəcəyik: "Dedik ki, düşməni torpaqlarımızdan qovacağıq! Heç bir danışıqlar bizi maraqlandırmır. Mən müharibədən əvvəl deyəndə ki, mən bilirəm nəyi nə vaxt etmək lazımdır, əminəm ki, xalqımızın mütləq əksəriyyəti başa düşürdü mən nəyi nəzərdə tuturam və səbirlə bu günü gözləyirdi, mənə inanırdı, Prezident kimi, Ali Baş Komandan kimi inanırdı, gözləyirdi və bu gün gəldik. Dedik ki, düşmənə yerini göstərəcəyik, düşməni torpaqlarımızdan qovacağıq və qovduq da!".

Biz bu qələbəni döyüş meydanında qazandıq. Bu gün Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuz tarix yazdı. Bu gün bütün Azərbaycan, dünya azərbaycanlıları milli qürur və qələbə tarixini yaşayır.

Şanlı tarixin yazılmasının əsas memarı isə Ali Baş Komandan, QALİB SƏRKƏRDƏ İlham Əliyev cənablarının son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyasıdır. Azərbaycan xalqı bundan sonra da yumruq kimi Azərbaycan Prezidentinin ətrafında birləşəcək. Qarabağ Azərbaycandır!

# Paşinyanın "məxmər olmayan" istefa perspektivi...






İnsanları öz tərəflərinə çəkərək ölkədəki hakimiyyəti dəyişdirmək iddiası bu gün Ermənistanda ən aktual məsələ kimi gündəmdədir. Erməni siyasətçilərinin iddiasına görə, bu gün Ermənistanda yaşananlar ölkənin dövlətçiliyini itirmək üçün təhlükə yaradır. Maraqlıdır ki, Paşinyanı ölkə maraqlarına xəyanətdə ittiham edən ermənilər, çoxlarına qəribə də olsa, bunu ermənilərin tarixi praktikasında nadir hal kimi dəyəndirirlər. Buna görə də belə bir şəxsin hakimiyyətdən uzaqlaşdırılmasını ermənilərin taleyüklü bir vəzifəsi kimi qiymətləndirirlər.

SİA erməni mətbuatına istinadən bildirir ki, hazırda baş nazır Nikol Paşinyanın fəaliyyətinin nəticələri ölkə üçün faciəvi nəticələrə gətirib çıxardığını onlar "milli xəyanət" kimi dəyərləndirirlər.

Bu gün Ermənistanda müxalifətin və ona rəğbət bəsləyən etirazçı kütlələrin əsas vəzifəsi Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq olsa da, amma məsələ buna necə nail olmaqla bağlıdır. Təbii ki, bu psixoloji makiyajında səhvlərini başa düşən və nəticələrini yaşayan, könüllü olaraq yerlərini başqalarına verən insanlar kateqoriyasına aid deyil. Çünki onların kredosu əbədi bir döyüşdür və onlara görə, sülh yalnız adi bir xəyaldır. Təbii ki, bu başqa bir yazı mövzusu olsa da, burada fərq onların başqalarının döyüşə göndərərək, özlərinin isə sipər arxasında gizlənib ilham verməlśridir.

Erməni iddialarına görə, bu gün Paşinyan, siyasi rəqiblərinə qarşı etdiyi hərəkətlərlə, praktik olaraq onlara hakimiyyətin zorla dəyişdirilməsindən başqa bir seçim yolu qoymayıb. Lakin vaxt keçir və Paşinyan öz siyasəti ilə ölkəni geridönməz ola biləcək təhlükəli proseslərə qərq edir. Nəticədə müxalifət zaman problemi yaşayır - problemlər yığılır və onların həlli üçün vaxt getdikcə azalır. Məsələ bundadır ki, Nikolun son hərəkətləri daha qəti addım atmaq istəyən bir çox ermənilərdə elə də bir nikbinlik yaratmır. Məhz bu mənada görünür ki, etirazçı kütlələri birləşdirmək üçün Paşinyanın istefasının zəruriliyi fikri artıq yetərli deyil.

Bundan əlavə, bəzi etirazcı ermənilər hələ də çətin seçimlə üz-üzədirlər. Məsələn, onların çoxu üçün aydınlaşdıra bilmədikləri bir sual yaranır: görən, Paşinyanın istefasından sonra Ermənistanda nə olacaq? Belə görünür ki, bu gün baş nazir olmaq həsrətilə yanan Vazgen Manukyanın hakimiyyətə gətirilməsi ölkədə bir çoxlarının elə də ürəyincə deyil.

Buna görə də, bir çox erməni siyasiləri müxalifətin yaxın vaxtlarda xalqa seçim üçün alternativ ideoloji platformalar təklif edəcəyini istisna etmirlər. Onların fikrincə, bu gün ermənilərin birləşdirici fikirlərə ehtiyacları olsa da, amma yalnız bir böhran əleyhinə proqramla məhdudlaşmaq olmaz. Belə ki. bu proqram ölkənin nəinki suverenliyini, heç sərhədlərini belə qoruya bilməz.

Hazırda isə reallıq budur ki, ciddi problemlər məngənəsində cabalayan Ermənistan, hələ ki. bəzilərinin tərəddüdlə yanaşdığı çıxış yolunu Paşinyanın hakimiyyətdən uzaqlaşdırmasında görür. Ermənilər iqtidar dəyişikliyi uğrunda mübarizənin səmərəliliyini təyin edən əhəmiyyətli faktor kimi, bütün səviyyəli güc strukturları nümayəndələrinin də cəlb edilməsini istəyirlər. Onların təbirincə, belə olan halda mövcud hökumətin könüllü istefasına nail olmaq olar.

***Ağasəf Babayev***

# Şuşa dövlətimizin diqqət və qayğısı sayəsində nəinki Azərbaycanın, Cənubi Qafqazın mədəniyyət mərkəzinə çevriləcək



***Qırx dörd günlük Vətən müharibəsi Azərbaycan xalqının şərəf tarixində qəhrəmanlıq salnaməsidir. Bu salnamənin ən parlaq səhifəsi isə Şuşa şəhərinin işğalçı erməni qüvvələrindən azad edilməsidir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz 30 il düşmən tapdağında qalan torpaqlarımızı işğaldan azad etdi. Özü də necə azad etdi? Öz gücü və iradəsi hesabına.***

Bu illər ərzində dünyanın ən nüfuzlu təşkilatları Qarabağın Azərbaycanın tarixi torpağı olması ilə bağlı üzərilərinə öhdəlik götürsələr də, çox təəssüf, Azərbaycanın lehinə heç bir iş görmədilər. Həmin təşkilatlar işğal edilən torpaqların Azərbaycana qaytarılması ilə bağlı heç bir addım atmadılar və ya atmaq istəmədilər. Onların əvəzinə bu işi Azərbaycan özü yerinə yetirdi, ərazi bütövlüyünü bərpa etdi.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, tarix elmləri doktoru, professor Anar İsgəndərov deyib.

Azərbaycanın Vətən müharibəsində qələbə qazanmasının Prezident İlham Əliyevin müdrik, uzaqgörən dövlət siyasətinin nəticəsi olduğunu qeyd edən A.İsgəndərov deyib: "Prezident İlham Əliyevin 17 illik hakimiyyəti dövründə bütün sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də böyük işlər görüldü. Orduda peşəkar kadrların sayı artırıldı, maddi-texnika baza yenidən quruldu. Prezident İlham Əliyev ölkə iqtisadiyyatını o dərəcədə inkişaf etdirə bildi ki, biz ordumuzu dünyanın ən müasir silahları ilə təmin edə bildik. Məhz bunun nəticəsidir ki, Azərbaycan bu müharibədə qalib gəldi, zəfər qazanmağı bacardı".

Deputat diqqətə çatdırıb ki, Prezident İlham Əliyev yanvarın 19-da işğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri təsis edilməsi ilə bağlı Fərman verdi. Prezidentin Fərmanı ilə ilk nümayəndəliyin məhz Şuşada yaradılmasının mühüm hadisə olduğunu diqqətə çatdıran A.İsgəndərov qeyd edib: "Bu institut yenidir və eyni zamanda, müharibədən doğan nəticədir. Biz sülhsevər xalq olaraq dünya ictimaiyyətinə, o cümlədən erməni xalqına bəyan edirik ki, qonşuları ilə dinc və sülh şəraitində yaşamağa hər zaman üstünlük verən Azərbaycan indi də Ermənistanla sülh şəraitində yaşamağa hazırdır, yalnız bir şərtlə, onlar öz torpaq iddialarından əl çəksinlər. Ermənilər birdəfəlik dərk etsinlər ki, Azərbaycan XX əsrin 90-cı illərindəki ölkə deyil. Həmin illərdə ölkəmiz müstəqilliyini yenicə bərpa etmişdi, bu gün isə onların qarşısında güclü Azərbaycan dövləti var".

Professor Şuşaya nə üçün bu qədər böyük önəm verildiyini belə izah edib: "Hər bir xalqın sevdiyi, müqəddəs məkana çevirdiyi bir yer olur. Bizim müqəddəs məkanımız da Şuşadır. Qarabağın tacı olan Şuşa bizim mədəniyyət beşiyimizdir. Biz Qarabağın gözü, hamımızın diqqət mərkəzində olan Şuşanı o dərəcədə inkişaf etdirməliyik ki, hamı, dost da, düşmən də bizə qibtə ilə baxsın. Buna görə də bizim imkanlarımız kifayət qədərdir. Ermənilər də dərk etsinlər ki, Şuşa məhz Azərbaycanındır və onun qayğısını təkcə Azərbaycan xalqı çəkə bilər. Şuşa dövlətimizin diqqət və qayğısı sayəsində nəinki Azərbaycanın, ümumilikdə Cənubi Qafqazın mədəniyyət mərkəzinə çevriləcək.

Anar İsgəndərov qeyd edib ki, Azərbaycan xalqı öz tarixini, Qarabağın tarixini yaxşı bilir. Şuşanın yaranmasına qədər ilk xanlığın paytaxtı Bayat qalası, ondan sonrakı dövrdə Şahbulaq qalasının mərkəz kimi qurulması Azərbaycanın mülki tarixində, dövlətçilik tarixində şərəfli yer tutur. Ona görə də bir xalq olaraq Şuşaya böyük önəm veririk. Şuşaya çəkilən yol da onu göstərir ki, dünyanın hər yerindən buraya gələnlərə biz Qarabağ həqiqətini anlatmaq, Qarabağ uğrunda apardığımız Vətən müharibəsində qalib gəlməyimizin səbəblərini izah etmək üçün Şuşa əyani vəsaitdir. Şuşadakı qəhrəmanlıq tariximiz və Şuşanın qədim dövrünün tarixi, hətta bədxah qüvvələri də inandırmalıdır ki, bu şəhər birmənalı olaraq Azərbaycanındır. Ermənilərin Şuşa ilə bağlı iftira xarakterli tarixləri var və bu tarixə onların özlərindən başqa, heç kəs inanmır. Ağlı başında olan erməni politoloqlar və siyasətçilər Şuşanın Azərbaycanın olduğunu etiraf edirlər. Çünki onlar həqiqəti, tarixi inkar etməkdə çətinlik çəkirlər.

"Mədəniyyət beşiyi olan Şuşada dünya şöhrətli kifayət qədər sənət adamı yetişib. Azərbaycan Prezidenti İlham Əliyevin Şuşaya xüsusi nümayəndə təyin etməsi onu göstərir ki, bu şəhər yaxın vaxtda dünyanın ən gözəl məkanlarından birinə çevriləcək. Məqsəd Şuşanı Cənubi Qafqazın mədəniyyət beşiyinə çevirməkdir. Şuşa bərpa-quruculuq işlərini gözləyir və dövlətimiz də bu tədbirləri həyata keçirmək üçün əlindən gələni etməyə hazırdır. Şuşamızla bağlı bütün planlarımız uğurla həyata keçiriləcək", - deyə tarix elmləri doktoru fikirlərini yekunlaşdırıb.

## Badamdarda sürüşmə nəticəsində dəymiş ziyan açıqlanıb

***Badamdarda baş verən torpaq sürüşməsi nəticəsində insan tələfatı olmasa da, ərazidə olan resotana ziyan dəyib. Trend-in hadisə yerində olan əməkdaşının məlumatına görə, bunu Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin rəis müavini Elxan Əsədov bildirib.***



Onun sözlərinə görə, sözügedən resotoran fəaliyyətsiz olub: "Bildiyiniz kimi ötən gün axşamn saatlarında 20-ci massiv deyilən ərazidə yenidən torpaq sürüşməsi baş verib. Xoşbəxtlikdən süşmə zamanı insan tələfatı olmayıb. Yalnız fəaliyyəti vaxtı ilə bizim tərəfimizdən dayandırılan restoranın mətbəx hissəsində dağıntılar baş verib".

E. Əsədov qeyd edib ki, bu günə kimi Bakının bir neçə dəfə baş planı hazırlanıb və hər dəfə sürüşmə baş verən ərazi qeydə alınıb: "Badamdar Bakının ən təhlükəli sürüşmə zonasıdır. Bu günə kimi Bakının bir neçə dəfə baş planı hazırlanıb və hər zaman bu ərazi də nəzərə alınıb. Lakin uzun müddət, hətta Sovet dövründən başlayaraq yamacın yuxar ərazisində mühəndis hazırlıq işləri görülmədən, yaşayış obyektləri və müəlki obyektlər tikilib".

## Ali məktəblərdə ödənişsiz plan yerlərinin sayı artırılacaq?



"Keçən il dövlət sifarişli plan yerlərinin sayı artmışdı. İndi heç bir fikir söyləyə bilmərik". Bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə dünən keçirdiyi mətbuat konfransında deyib. DİM sədri qeyd edib ki, plan yerlərini Nazirlər Kabineti təsdiqləyir: "Biz yalnız təkliflərimizi veririk. Qeyd edim ki, 2019-cu ildə 41 693 nəfər ali məktəbə qəbul olmuşdu. Bu da o deməkdir ki, həmin plan yerləri 87% dolmuşdu. Qəbul olanların arasında 7% subbakalavr idi. 2020-ci ilin plan yerləri artırılıb. Dövlət sifarişli yerləri də artmışdı. Həmin il 41 748 nəfər ali məktəbə qəbul olmuşdu. 86 % plan yerləri dolmuşdu. Qəbul olunanlar arasında 10 % subbakalavr təşkil edirdi. 2019-cu il 3 515 subbakalavr,

2020-ci ildə isə 5 179 subbakalavr ali məktəbə qəbul olmuşdu. Bu da o deməkdir ki, ildən-ilə subbakalavrların ali məktəblərə qəbul faizi artacaq".

## Azərbaycanda sosial kartlar ləğv olunacaq



Azərbaycanda sosial kartlar ləğv olunacaq. SİA-nın məlumatına görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin sədri Mustafa Abbasbəyli "Rəqəmsal məşğulluğa keçid və aktiv məşğulluq tədbirləri: 2021-ci il üçün hədəflər" mövzusunda keçirdiyi mətbuat konfransında deyib.

M.Abbasbəyli deyib ki, bunun üçün 30-a qədər normativ hüquqi aktda dəyişiklik edilib. Onun sözlərinə görə, Agentliyin elektron sistemlərində də müvafiq uyğunlaşdırmalar artıq təmin olunub və qurum bu prosesə tam hazırdır: "Qanunvericiliklə bağlı son mərhələ də qəbul ediləndən sonra sosial kartları dövriyyədən çıxara biləcəyik. Şəxsiyyət vəsiqəsinin üzərindəki FİN nömrələr sosial kartların nömrələri ilə artıq uyğunlaşdırılıb. Yəni sosial sığorta nömrəsi yenə qalacaq, amma karta ehtiyac olmayacaq".

# Araik, kişisənsə rus əsgərlərinin arxasından başını bayıra çıxar

***Guya son 80 gündə Qarabağa 50 mindən artıq erməni qaytarılıb. Bu feyk xəbərdir. Beynəlxalq Qırmızı Xaç Komitəsinin son açıqlamasında deyilir ki, Qarabağa qaytarılan ermənilərin sayı süni şəkildə artırılır.***



Qayıdanların sayının süni şəkildə artırılması ilə Araik Arutyunyanın əldəqayırma "dqr"i və Ermənistan BQXK-dən, erməni diasporundan və beynəlxalq humanitar təşkilatlardan daha çox yardım qoparmaq istəyirlər. Beynəlxalq ekspertlərin hesablamalarına görə, son 80 gündə cəmi 25 minə yaxın erməni geri qayıdıb və yaxud qaytarılıb. 10 noyabra qədər isə, Qarabağda 5 minə yaxın əhalinin qaldığı bildirilir. Ümumilikdə hazırda Qarabağda 30 minə yaxın erməninin olduğu söylənilir.

Məlumatda o da deyilir ki, geri qaytarılan 25 min ermənininin Qarabağda normal həyatı üçün şəraitin olmaması və yeni müharibə təhlükəsi səbəbindən onlardan 5 mindən çox erməni yenidən Ermənistana qayıdıb. Burada bir məqamı da qeyd edək ki, istər Qarabağda, istərsə də Ermənistanda iqtisadi vəziyyətin ağır olmasına görə on minlərlə erməni Avropaya və Rusiyaya qaçmaq üçün məqam gözləyir. Amma pandemiya səbəbindən sərhədlər bağlandığı üçün bu adamlar oturub gözləməli olublar.

Bugünlərdə erməni sosioloq Samvel Manukyan mətbuata açıqlamasında bildirib ki, "2021-ci ildə 150-200 min erməni mühacirət edə bilər. Köç edənlərin əksəriyyəti Rusiya istiqamətini seçib. Bu, yalnız ermənilərin ABŞ və Avropa ölkələrinə əlləri çatmaması ilə bağlı deyil. Rusiya yeni bir həyat qurmaq üçün daha çox imkanlar vəd edir. Çünki asan sosiallaşma, mövcud məşğulluq imkanları Rusiyada daha böyükdür. Üstəlik, bu ölkədə dil maneəsi yoxdur".

Manukyanın hesabatına əsasən, mühacirlərin 10 faizini Qarabağ ermənilərinə şamil etsək, onda yaxın vaxtlarda ən azı 15-20 min erməni Qarabağı tərk edəcək. Bu hesabla da Qarabağda qalan ermənilərin maksimum sayı 25-30 min civarında olacaq. Bu isə Azərbaycanın ən kiçik rayonunun əhalisi qədərdir.

Proseslərin belə inkişafı isə erməni probleminin birdəfəlik həllində xalqımıza ən yaxşı kömək olacaq. Beləcə, Qarabağda qalacaq az sayda erməni Azərbaycan təbəəliyini könüllü qəbul edəcək. Araik Arutyunyan və onun kimilər isə törətdikləri cinayətlərə görə ən azı ömürlük həbsə məhkum olacaqlar. İndiki halda "dqr" cəlladı Araikin başqa çıxış yolu yoxdur. Ermənistan bu bədbəxti qəbul etmir. Rusiyaya və yaxud Avropaya qaçmağa isə qorxur. İndi Araik üçün ən təhlükəsiz yer rus sülhməramlılarının arxasıdır. Müharibə gedən günlərdə deşiyin birindən qaçıb o birində gizlənən bu qorxaq indi ora sığınıb.

Çünki radikal erməni millətçiləri onu harda tutsalar, ən ağır şəkildə cəzalandıracaqlar. Ermənilərin tam əksəriyyəti Arutyunyanı II Qarabağ müharibəsindəki məğlubiyyətin iki baiskarından biri, bəlkə də birincisi qismində görürlər. Eks-prezident Robert Koçaryan isə öz məsuliyyətini sığortalamaq üçün Arutyunyanı açıq surətdə alçaqlıqda və erməni xalqına ən böyük xəyanətkarlıqda ittiham edir.

Rus sülhməramlılarının arxasında gizlənərək, "fəaliyyətini" davam etdirən keçmiş və qondarma "dqr"in terrorçubaşı, Azərbaycan hüquq-mühafizə orqanlarından həlelik yayınmağı bacaran Araik Arutyunyun növbəti açıqlama verib. Karen Sarkisyan adlı ermənini "daxili işlər naziri" kimi təqdim etməklə, daha bir terrorçunu ifşa edib və Azərbaycanın hüquq-mühafizə orqanlarına ipucu verib.

Arutyunyan yeni terrorçunu "təqdim" edərkən, "artsax"ın yenidən təşkil olunmasından və "qarşıdakı işlərdən" danışıb və bildirib ki, heç bir halda "artsax"a Azərbaycanın tərkibində status verilə bilməz və onlar bununla razılaşmayacaqlar. Ancaq bu bədbəxt heç düşünmür ki, onun ağzı ilə heç nə ölçən yoxdur. Yəqin bir gün ondan soruşan olacaq ki, ay Araik, Azərbaycan status məsələsini zibilliyə atıb, beş-on quldur dığa ilə nə qələt qıra bilərsən? Kişisən rus sülhməramlılarının arxasından öz xoşunla bayıra çıx, çıxmasan, dartıb səni ordan da çıxaracaq, məhkəmə qarşısında oturdacaqlar.

27 il müddətində özlərini "müstəqil" sayanlar və Azərbaycanı müharibəyə təhrik edənlər hansı səhvə yol verdiklərini 44 günlük müharibə zamanı qandılar. Rus sülhməramlılarının nəzarətində qalan Azərbaycan ərazilərində də ölkəmizin suveren hüquqlarının təmin olunacağı gün uzaqda deyil. Azərbaycanın öz ərazilərində antiterror əməliyyatı keçirmək hüququ var və bunu 11 dekabr 2020-ci ildə təsdiqlədi.

***Vəli İlyasov***

# Türkiyədən gələn qatar... Rusiyaya yola salındı



Azərbaycan, Türkiyə və Rusiya arasında dəmir yolu sahəsində üçtərəfli əməkdaşlıq formatında daha bir layihəyə start verilib. "Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti olan "ADY Konteyner" MMC-dən SİA-ya verilən məlumata görə, bu dəfə Türkiyədən Rusiyaya ixrac yüklərindən ibarət konteyner qatarı yola salınıb.

Məlumata görə, 15 konteynerdən ibarət qatar Türkiyənin Ankara şəhərindən Rusiyanın Vorsino stansiyasına istiqamət götürüb. Qatarın ümumilikdə 4 min 650 kilometrlik yolu 8 günə qət edəcəyi gözlənilir. 40 futluq konteynerlərdən ibarət olan qatarın yükü, əsasən, Türkiyə istehsalı olan məişət əşyalarıdır. Yükün ümumi çəkisi 150 tondur. Qatar Bakı-Tbilisi-Qars dəmir yolu və "Şimal-Cənub" Nəqliyyat Dəhlizi vasitəsilə, Türkiyə, Gürcüstan, Azərbaycan ərazisindən keçərək Rusiya ərazisinə daxil olacaq.

Daşımanın operatorları "Pasifik Eurasia Logistics" (Türkiyə), "GR Logistics" (Gürcüstan), "ADY Konteyner" (Azərbaycan) və "Russian Railways Logistics" (Rusiya) şirkətləridir. Qeyd edək ki, ötən ilin sonunda Türkiyədən Çinin Sian şəhərinə iki ixrac qatarı çatdırılıb.

# Kılıçdaroğlunun başı dərddə: haqqında cinayət işi açılacaq

***Türkiyə Daxili İşlər Nazirliyi tərəfindən CHP sədri Kamal Kılıçdaroğlunun valilər və bələdiyyə sədrlərinə ünvanladığı "militan" ifadəsi ilə əlaqədar olaraq Ankara Baş Prokurorluğunda haqqında cinayət işi açılması üçün müraciət olunub. Bu barədə "Sabah" qəzeti məlumat verib.***



Xatırladaq ki, Kamal Kılıçdaroğlu "Habertürk" telekanalında qatıldığı bir verilişdə AKP-li dövlət rəsmilərinin ünvanına "silahlı" ifadəsini işlətmişdi. Bundan sonra daxili işlər naziri Süleyman Soylu Kılıçdaroğlunu bu ifadəsinə görə məhkəməyə verəcəyini açıqlamışdı.

# Qazaxıstana pomidor ixracı bərpa olunub



Azərbaycan Respublikasından Qazaxıstan Respublikasına ixrac olunan pomidor məhsullarına tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması istiqamətində ardıcıl tədbirləri davam etdirilir.

"İki sahil" xəbər verir ki, məsələ ilə bağlı AQTA və aidiyyəti qurumlarla birgə Qazaxıstan Respublikasının müvafiq qurumları arasında aparılan danışıqlar, həmçinin Agentliyin mütəxəssisləri tərəfindən müxtəlif təsərrüfatlardan, yük partiyalarından və daxili bazarlarda satışa çıxarılan pomidor məhsullarından götürülən nümunələrdə qonur qırışıqlıq virusu və digər viruslar aşkar olunmadığını əks etdirən sübutlara əsasən 29 yanvar 2021-ci il tarixindən bu ölkəyə pomidor ixracı ilə məşğul olan 40 müəssisəyə ixrac üçün icazə verilib. Eyni zamanda sözügedən virusun bir sıra dünya ölkələrində yeni karantin tətbiq olunan zərərli orqanizm kimi müəyyən olunması nəzərə alınaraq bu virusun tədqiqi ilə bağlı hər iki ölkənin mütəxəssislərindən ibarət işçi qrupunun yaradılması ilə bağlı qarşılıqlı razılıq əldə olunub.

Bildirilir ki, ixrac üçün icazə verilən hər bir təsərrüfatın məhsul partiyalarından AQTA tərəfindən qonur qırışıqlıq virusu üzrə müayinələr aparılacaq və müayinələrin nəticələrinə uyğun olaraq müvafiq sertifikatla təmin olunan sahibkarlıq subyektləri bu ölkəyə pomidor məhsulu ixrac edəcəklər. Hazırda AQTA ilə Qazaxıstan Respublikasının müvafiq qurumları arasında müzakirələr davam etdirilir.

# Araik Nikolla gizli danışır və Qarabağda qapalı görüşlər keçirir




***Üzdəki proseslər populist şüarlar, revanşizm və təxribattörətmə aksiyaları kimi görünsə də, gerçəklikdə "dqr" adlı saxta, qurama bir qurumun son nəfəs verdiyini proqnozlaşdırmaq kifayət qədər mümkündür.***

"Nikol Paşinyanla Araik Arutunyan nə etməyə hazırlaşırlar? Söhbət hansı "çətin həlldən" gedir? Artıq neçə gündür ki, "artsaxlılar" (dırnaqlar bizimdir - R.R.) özlərinin və yaxınlarının gələcəklərindən narahat olmaqda, aktiv şəkildə sosial şəbəkələrdə bir-birini birləşməyə, fəaliyyət göstərməyə çağırmaqdadırlar". SİA xəbər verir ki, bu barədə ArmVoice teleqram kanalında yazılıb və ehtimal olunur ki, Qarabağ erməniləri yenidən təlaşlanmağa, Qarabağ torpaqlarının həqiqi sahiblərinin geri dönəcəkləri faktorunun günü-gündən artması reallığından qorxmağa başlayıblar.

**Böyük sülh sazişi imzalanmayıb və hər şey hər an dəyişə bilər!**

Hətta Rusiya sülhməramlıları faktoru belə, onlar üçün birmənalı xilas mənbəyi hesab olunmur. Misal üçün, Ermənistandan Qarabağa yalnız Qarabağ mənşəli ermənilərin gətirilməsi deyil, eyni zamanda, Livan, İraq, Suriya ermənilərinin də gətirilməsi faktı da onları bu qorxudan qurtarmır. Çünki onlar anlayırlar ki, Azərbaycan dövləti əsla bu torpaqların, əsasən də Xankəndinin və s. nəzarəti altında olmayan bəlli ərazilərin bundan sonra daha bir neçə illər ərzində başqalarının, yəni ermənilərin əlində qalması faktı ilə barışmayacaq. O cümlədən, böyük sülh sazişi imzalanmayıb və hər şey hər an dəyişə bilər!

Digər tərəfdən, fakt budur ki, imzalanmış üçtərəfli bəyanatda açıq-aydın göstərilir ki, Rysiya sülhməramlıları bölgəyə daxil olan gündən başlayaraq bütün erməni silahlıları bu əraziləri tərk etməlidirlər, separatçıların saxta bayraqları endirilməlidir, bütün dövlət orqanları birbaşa Azərbaycan dövlətinin yuruduksiyasına dövr edilməlidir.

**168.am: "Araik Arutunyan insanlarla ictimaiyyətdən kənar görüşlər keçirir və oradakı adamlarla hansısa "çətin həllərdən" danışır"**

Başqa yandan, Qarabağ ermənilərini çaşqınlığa salan daha bir məsələ mövcud olmayan "dqr"in saxta "prezidenti" Araik Arutunyanın bir tərəfdən "vəzifə təyinatları" aparması, "güc strukturları" - "daxili işlər nazirliyi", "təhlükəsizlik şurası" qurması, üstəlik, 30 il əvvəl Xankəndindəki doğma yurd-yuvalarından qaçqın düşmüş azərbaycanlıların geriyə qaytarılması prosesini istisna etməsi, eləcə də Qarabağın Azərbaycanın tərkibində heç vaxt statusa malik olmaması barədə sərsəmləməsi, digər tərəfdən isə ikinci Qarabağ müharibəsində uğradıqları sarsıdıcı məğlubiyyətin əsas baiskarı - Ermənistanın baş naziri Nikol Paşinyanla gizli görüşlər keçirməsidir. Məhz bu kimi bir-birini vuran iki amil arasında çaş-baş qarabağlı ermənilər proseslərin necə və hansı məcrada getdiyi üzərində başlarını sındırsalar da, yekdil nəticəyə gələ bilmirlər.

Bu baxımdan, adıçəkilən erməni kanalı yazır: "Buna səbəb "artsax"ın "prezidenti" Araik Arutunyanın "stepanakertdə" və "artsaxın" digər rayonlarında qapalı görüşlər keçirməsidir. İş ondadır ki, 168.am-ın məlumatlarına görə, Araik Arutunyan insanlarla ictimaiyyətdən kənar görüşlər keçirir və oradakı adamlarla hansısa "çətin həllərdən" danışır və deyir ki, "xalqın" qərarını öyrənmədən heç nəyə imza (halbuki onun imzasının, ümumiyyətlə, heç bir qüvvəsi olmayıb və yoxdur - R.R.) atmayacaq. Bir sözlə, Araik Arutunyan "artsax xalqının" necə köklənməsini və hansı "inam resursuna" malik omasını öyrənməyə çalışır".

**Araik və onun quldur, terrorçu komandası da əslində yaxşı bilirlər ki, vəziyyət heç də onların xeyirlərinə doğru inkişaf etmir**

Məhz bu məlumatdan təxmini nəticələr çıxara bilməklə həm də belə bir fikir yürüdə bilərik ki, son vaxtlar ritorik bəyanatlar səsləndirən Araik və onun quldur, terrorçu komandası da, əslində yaxşı bilirlər ki, vəziyyət heç də onların xeyirlərinə doğru inkişaf etmir və son zamanlar gizli, qapalı görüşlər keçirməsi, həmçinin Paşinyanla gizli məsləhətləşmələri də Arutunyanın hər hansı bir nəticəyə gəlməkdə zorluq çəkdiyini sərgiləməkdədir. Hər halda, üzdəki proseslər populist şüarlar, revanşizm və təxribattörətmə aksiyaları kimi görünsə də, gerçəklikdə "dqr" adlı saxta, qurama bir qurumun son nəfəs verdiyini proqnozlaşdırmaq kifayət qədər mümkündür. Necə deyərlər, yaşayarıq, görərik...

***Rövşən RƏSULOV***

# "Njdeyə heykəl qoyulması sivil bir cəmiyyətə təhqirdir"



"Xocavənddə ermənilər tərəfindən faşist Qaragin Njdeyə heykəl qoyulması məsələsində reallıq odur ki, Rusiya sülhməramlıları onların başlarına sığal çəkir və bir sıra faktlara, sadəcə olaraq, göz yumur". Bunu SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib. Ekspert bildirib ki, mən buna çox təəccüblənirəm, çünki ruslar özü nasist Almaniyasından əziyyət çəkib və milyonlarla qurban verib: "İndi guya ruslar Njdenin qarşısında acizdirlər ki, buna bir reaksiya vermirlər? Aydın məsələdir ki, həmin heykəl gec-tez götürüləcək. Mən buna şübhə etmirəm".

F.Sadıqov vurğulayıb ki, Xocavənd Azərbaycanın ərazisidir və bizim əhalimiz, həmçinin bir sıra rəsmi, həm qeyri-rəsmi srtukturlarımız orada fəaliyyət göstərəcək: "Əgər sülhməramlılar qarşıdurma yaranmasını istəmirlərsə, təbii ki, bu cür təxribatçı addımların qarşısını almalıdırlar. Belə bir heykəlin Azərbaycan torpağında qoyulması Azərbaycan xalqına və ümumiyyətlə, sivil bir cəmiyyətə təhqirdir. Eyni zamanda əsl təxribatdır".

***Aysel Məmmədova***

# Valideynlərini itirmiş uşaqlara ödəniləcək vəsait artırıldı



Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların dərs ləvazimatları, paltar və ayaqqabıları üçün ödəniləcək məbləğ artırılıb. Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar arasından olan şəxslərə dövlət ali, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasında təhsil aldıqları müddət ərzində dərslik və dərs ləvazimatları alınması təhsil aldığı müəssisənin və ya AMEA-nın vəsaiti hesabına təmin edilir və yaxud həmin dərslik və dərs ləvazimatları əvəzinə 50 manat (əvvəl 36 manat) müavinət verilir.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər dövlət, ümumi təhsil, peşə təhsili, orta ixtisas təhsili, ali təhsil müəssisələrini və AMEA-nı bitirdikləri zaman müvafiq təhsil müəssisəsinin və ya AMEA-nın xərclər smetası hesabına 265 manat (əvvəl 27,5 manat) məbləğində mövsümü paltar və ayaqqabı, habelə respublika üzrə orta aylıq əmək haqqının 2 mislindən az olmamaqla birdəfəlik pul vəsaiti ilə təmin olunurlar.

# Kəlbəcərdən köçürülən ermənilər ayağa qalxdı



Kəlbəcərdən İrəvana köçürülən ermənilər hökumət binasının qarşısında etiraz aksiyası keçirir. SİA xəbər verir ki, onlar evsizlikdən və baxımsızlıqdan şikayətlənir. Dövlət məmurları ilə görüşməkdə israr edən etirazçılar, eyni zamanda, itirdikləri əmlaklarına görə Ermənistan hakimiyyətindən kompensasiya tələb edir. Onlar arasında Qarabağdakı döyüş əməliyyatlarında iştirak edənlər də var. Sakinlər bildirir ki, İrəvana köçürülmədən bir neçə saat öncə Kəlbəcərin Azərbaycanın nəzarəti altına keçməsi barədə xəbərdarlıq edilib. İndi Ermənistan hakimiyyətinin verdiyi yardım ev kirayələmək və kommunal xərcləri ödəmək üçün belə çatmır.

Aksiya iştirakçıları yerli özünüidarəetmə orqanlarının nümayəndələri və yüksək vəzifəli məmurların münasibətindən də narazıdırlar. Keçmiş Kəlbəcər sakinləri Ermənistanın indi boş qalan kəndlərinə yerləşməyə və orada kənd təsərrüfatını inkişaf etdirməyə hazır olduqlarını söyləyir. Qeyd edək ki, Azərbaycan üçtərəfli bəyanat əsasında Kəlbəcərin boşaldılması üçün ermənilərə 15 gün vaxt tanımışdı.

***Aysel Məmmədova***

# Erməni iqtisadiyyatı ötən il 7.5 faiz itirib



Ermənistanın Statistika Komitəsi ölkə iqtisadiyyatının 2020-ci il ərzində necə inkişaf etdiyinə dair yeni makroiqtisadi məlumatları təqdim edib. SİA erməni mənbələrinə istinad edərək bildirir ki, Ermənistanda mart ayında koronavirusun "qəfil aşkarlanması"ndan sonra ölkə iqtisadiyyatında gözlənilən fəlakətin ilk əlamətləri nəzərə çarpmağa başlayıb. Bu tənəzzül, yəni iqtisadi fəaliyyət göstəricisi mənfi 92,5 faiz azalıb.

Maraqlıdır ki, bu göstəricini əsas tutan erməni iqtisadiyyatçıları, tərəddüd etmədən, ölkənin çoxdan tənəzzülə uğradığını etiraf etmək məcburiyyətində qalıblar. Yəni son bir ildə "milli erməni iqtisadiyyatı" 7,5 faiz itirib.

Qeyd edək ki, erməni iqtisadçıları "milli erməni iqtisadiyyatı"nin yaxın zamanlarda dirçəliş tapa biləcəyinə də o qədər ümidli deyillər. Onlar Paşinyan kabinetinin ehtiyatında nə uyğun bir arxa plan, nə də kadr olmadığını əsas kimi gətirərək bu fikri söyləyirlər.

***Ağasəf Babayev***

# Quduzlaşmış Paşinyan "Düz yola gəlin" mesajına əməl etmədikdə...

## Azərbaycan yeni reallıq yaratdı, Ermənistanın kapitulyasiyası oldu

***Bəli, Azərbaycan Prezidenti Ilham Əliyev istər İkinci Vətən Müharibəsindən əvvəl, istərsə də sonra quduzlaşmış, quldur, faşistxislətli, xəstə təfəkkürlü Ermənistanın baş naziri Nikol Paşinyanı dəfələrlə "Düz yola gəl" mesajını verdi. Ancaq küçə "demokratı" hansı "düşüncə" ilə "düz yola" gələ bilərdi? Bu gün Yerevanda baş verən proseslər bir daha onu göstərir ki, erməni xalqı küçə xəstəsini hakimiyyətə gətirdikləri üçün peşman olublar. İndi özləri küçələrə düşüblər, "düz yol" axtarırlar, ancaq... Günahkar kimdir? Belə bir atalar sözü var: "sonrakı peşmançılıq fayda verməz". Hələ də bütün bunlardan sonra erməni xalqı anlamır ki, Ter-Petrosyan hakimiyyətindən tutmuş indiki küçə "demokratı" başıpozuq, xəstə təfəkkürlü Nikol Paşinyana kimi savadsızların uğursuz hakimiyyət "siyasətinin" əziyyətini elə sadə erməni xalqı çəkir və nə qədər ki, bu küçə xəstəsi hakimiyyətdədir.***



Bir fikirləşsinlər ki, faşistxislətli, quldur, quduzlaşmış Paşinyan bu günə kimi hansı qələtləri etməyib? "Qarabağ Ermənistanındır, vəssalam!" böyük qələtini edərkən, Azərbaycan Prezidentinin cavabı "NİDA!" olmalı idi. Ən əsas məqam isə, Nikol bu cavabı nəinki öz ölkəsində, hətta bütün dünya siyasətçiləri, prezidentləri səviyyəsi qarşısında almaqla yanaşı, həm də dünyadakı erməni havadarlarına da bir "düz yola gəlin" mesajı idi və bununla Azərbaycan dövlət başçısı bu məsələni dəfələrlə təkrar çatdırıb: "Azərbaycan torpaqlarının Ermənistan işğalından azad edilməsi bütün tərəflər üçün qəbuledilləndir".

Və onu da qeyd edək ki, Azərbaycanın Qalib, diplomatik Lideri Prezident İlham Əliyev cənabları Paşinyan və onun ətrafında olan anlamazlıqlara real cavab bir dəfə çağırış etdi - "Qarabağ Azərbaycanındır və nida işarəsi" və "Ermənistan işğalçı dövlətdir!" ifadəsini əvəz edən digər fikir ola bilməz. Və bu gün Azərbaycan Prezidentinin apardığı xarici, ümumiyyətlə, bütün sahələr üzrə əvəzolunmayan siyasəti məhz dövlət başçısının düşünülmüş siyasətinin uğurlu nəticəsidir.

Lakin işğalçı ölkə olan Ermənistanın xarici işlər naziri utanmadan təhlükəsizlik problemlərindən, müqəddəratı azad şəkildə ifadə etməkdən danışması bir daha erməni xalqının bədbəxtçiliyidir ki, yaşadıqları ölkəyə belə səviyyəsiz, quldur, gorbagorlar başçılıq edir.

### Paşinyan xəstə komandası ilə haraya qədər...

Göründüyü kimi, anlamayanı anlatmaq olmaz. Bir də, 40-ında öyrənən... Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağdakı məğlubiyyətdən sonra Ermənistan Silahlı Qüvvələrində islahatların aparılmasının vacibliyini bildirib. Necə deyərlər: "sonrakı peşmançılıq fayda verməz". Paşinyan bu barədə yeni müdafiə naziri Vaqarşak Arutyunyanı nazirliyin heyətinə təqdim edərkən bildirib: "Baş verənləri ciddi şəkildə təhlil etməli, harada və niyə səhv etdiyimizi, bu səhvlərdən nəticə çıxarmaq üçün nəyin lazım olduğunu anlamalıyıq. Ümumiyyətlə, orduda və silahlı qüvvələrdə islahatların aparılması zərurəti ilə üzləşdiyimiz açıqdır".

Paşinyan silahlı qüvvələrin uğurlu fəaliyyəti üçün "orduda və Silahlı Qüvvələrdə sağlam ənənələri pozmadan yeni bir məntiq, yeni taktika və strategiya qurmağın çox vacib olduğunu",-deyib.

Paşinyan, "axsaq atın kor nalbəndi" olan xəstə komandanla haraya qədər? Anlamalıdır ki, dar ağacından asılmaq istəmirsə öz xəstə komandası ilə birlikdə bu oyundan geri çəkilməyin vaxtıdır. Çünki bu gün dünyanın böyük dövlətlərinin başçıları dəfələrlə bəyan ediblər ki, münaqişə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə həll oluna bilər və sübut olundu da! Ancaq bütün bu deyilənlər bir daha sübut edir ki, işğalçı ölkənin işğalçı baş naziri Paşinyan - bütövlükdə öz xəstə komandası ilə birlikdə bu oyundan geri çəkilsin. Çünki keçirilən son görüşlərdə Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı artıq Ermənistan cəmiyyətində Paşinyan rejiminə qarşı böyük nifrət və inamsızlıq formalaşdırdı. Və nəticədə 25-26 oktyabr tarixlərində Bakıda keçirilən Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının 18-ci Zirvə görüşünün Yekun Sənədi və bu yüksək səviyyəli tədbirdə iştirak edən 159 nümayəndə heyətinin birmənalı şəkildə Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı beynəlxalq hüququn norma və prinsipləri və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanan Ermənistanın işğalçı dövlət olması ilə bağlı qəti mövqeyi Azərbaycanın xarici siyasətimizin uğuru ilə yekun NİDASINI qoydu.



### Erməni müxalifətləri: "Azərbaycan Prezidentinin açıqlamaları Paşinyanın üzündəki maskanı cırır"

Bu, həqiqətən də belədir. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə faşist xislətli Ermənistanın baş naziri Nikol Paşinyanın maskasını cırsa da, həyasızlığını o qədər, daha doğrusu ən yüksək şkalaya- 100-ə qalxsa belə yenə də o təcavüzkar, sərsəm xislətindən əl çəkmir ki, çəkmir...

Ermənistan Respublika partiyasının sədr müavini, keçmiş vitse-spiker Armen Aşotyan baş nazir Nikol Paşinyanı sərt dillə tənqid edərək bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin son müsahibəsində verdiyi açıqlamalar Paşinyanın əsl simasını göstərir: "İlham Əliyevin açıqlamaları Nikol Paşinyanın üzündəki maskanı cırır. Bu şəraitdə baş nazirin Prezident İlham Əliyevə cavab vermək yerinə mənasız müzahirələrini dinləmək, xarici işlər nazirinin həmin açıqlamaları şərh etməkdən imtina etməsi sadəcə absurddur. Bu da təəccüblü deyil. Belə savadsız, xarici siyasətdən, ümumiyyətlə, siyasətdən xəbərsiz bir küçədən gələn hay-küyçüdən ancaq müzakirələr eşidilməsi təəccüblü də deyil. Bu yolun sonu yenə küçə olacaq".

### Argişti Kyaramyan: "Türkün iti olmaq daha yaxşıdır, nəinki..."

Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin (SNB) direktoru Argişti Kyaramyanın göstərişi ilə bir müddətdir ölkədə Rusiya agentlərinin axtarışı aparılır. Bu barədə erməni şərhçi Vladimir Sarkisyan deyib. Onun sözlərinə görə, SNB rəhbəri Argişti Kyaramyan Rusiya agentlərinin axtarışı məsələsində belə bir ifadə işlədib: "Türkün iti olmaq daha yaşıxıdır, nəinki...". Bu cümlənin davamı "nəinki Rusiyanın" deməkdir.

Vladimir Sarkisyan onu da bildirib ki, kulislərdə işlədilən bu ifadəyə görə SNB rəhbərini tənqid edir, Rusiyanın Ermənistanın təhlükəsizlik zamini olduğunu, yeni hakimiyyətin dövlətə xəyanət etdiyini deyir.

Həmçinin, A.Kyaramyanın "Türkün iti olmaq daha yaxşıdır, nəinki..." ifadəsi Ermənistanda hakim komandanın Rusiyaya qatı nifrətini göstərir.

### Azərbaycan Prezidenti: "Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir"

Bəli, sentyabrın 27-də Ermənistanın törətdiyi təxribata adekvat cavabı olaraq Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Azərbaycan həm döyüş meydanında, həm danışıqlar masası arxasında istədiyinə nail olub. Sentyabrın 27-dən başlanmış və noyabrın 10-da başa çatmış hərbi mərhələ sübut etdi ki, Ermənistan hakimiyyəti məntiqli, rasional düşüncəyə malik deyil, onlar erməni xalqının yox, sırf xarici qüvvələrin maraqlarına xidmət edirlər. Sübut edildi ki, Azərbaycanın razılığı olmadan Dağlıq Qarabağla bağlı heç bir qərar qəbul edilə bilməz.

Və bu gün artıq Azərbaycan haqqın, ədalətin, ərazi bütövlüyünün bərpasına nail oldu. 30 illik əsarət altında olan torpaqlarımızın azadlığına son qoyuldu.

Deyir, dünyanın istənilən nöqtəsində baş verən müharibədə qələbənin təmin olunması üçün bir neçə vacib tələblər var: düşünən beyin və vuran əllərdən ibarət canlı qüvvə, müasir texniki imkanlar, davamlı hərbi təminat və əhval ruhiyyə. Bu tələblər təmin olunursa,



döyüş meydanında uğur mütləq təmin edilir. Müzəffər Azərbaycan Ordusunda bunların hamısı var. Əlbəttə ki, bütün bu prosesə, zəfər yürüşünə peşəkarlıqla liderlik edən Ali Baş Komandandır. Nəticə göz önündədir. Bunun da təməlində qələbəyə inanan, uzun illərdir intizarında olduğumuz Böyük Zəfərin əldə edilməsi üçün dövlətimizə, rəşadətli Ordumuza, Ali Baş Komandanımıza dəstək verən xalqımızın böyük ruh yüksəkliyi, milli vəhdəti dayanır.

Paşinyan isə çıxış yolu layiq olmadığı oturduğu o kresloya əlvida deyib, gəldiyi yerə - küçəyə bağırmağa getməlidir.

***RƏFİQƏ HÜSEYNOVA***




**Ekspertlər: "Sosial şəbəkədən düzgün istifadə etməmək nəticəsində ailələrdə boşanmalar, hətta cinayət faktları baş verir"**

Azərbaycan Respublikasının Mediaının İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

ARAŞDIRMA

# Sosial şəbəkələr ailələrdə hansı problemlər yaradır?

Bu gün sosial şəbəkələr cəmiyyətdə əsas mövzuların ictimai müzakirə platformalarıdır. Hamıya məlumdur ki, həyatımızın demək olar çox hissəsi internetlə bağlıdır. İnternet müasir dövrdə insanların əsas xəbər, əlaqə, əyləncə mənbəyidir. Əgər əvvəllər dünyanın başqa yerlərində baş verən hadisələrdən xəbərsiz qalırdıqsa, yaxud da gec informasiya alırdıqsa, indi hadisələr barədə dərhal məlumatımız olur. Üstəlik, burada müxtəlif məsələlərlə bağlı müzakirələr aparılır, şəxsi əlaqə saxlamaq imkanları var. Lakin bunun müsbət tərəfləri ilə bağlı mənfi tərəfləri də var ki, bu yazıda onlardan birinə toxunacağıq.

## Sosial, yoxsa, asosial şəbəkə?

Sosial şəbəkənin yaranması ötən əsrin 90-cı illərinə təsadüf edir və bu termin ilk dəfə elmi leksikona ingilis sosioloq Barns tərəfindən daxil edilib. Keçən 3 onillikdə sosial şəbəkələr internetin əsas elementinə çevrilib. Artıq insanlar vaxtlarının böyük hissəsini burada keçirir. Nəticədə, real ünsiyyət məhdudlaşır, daha çox virtual həyat forması ortaya çıxır. Sosial şəbəkələrin fiziki və sosial həyatımıza zərərlərini bildiyimiz təqdirdə də yenə istifadəni məhdudlaşdırmırıq.

ABŞ-da keçirilmiş illik NCA konfransında fərdi xüsusiyyətə malik, özləri haqqında yüksək fikirləri olmayan insanların sosial şəbəkələrə daha meyilli olduqları və pis yaddaşa malik olduqları müəyyən edilib. Üstəlik, belə insanlar sosial şəbəkələrdə olduqlarından fərqli görünməyə çalışır və bu da şəxsiyyətin ikiləşməsi və sair bu kimi psixi problemlər yaradır.

Son vaxtlar sosial şəbəkələrin ailə dəyərlərinə təsiri kəskin artıb. İndi ailə üzvləri real ünsiyyətdənsə hərəsi bir smartfona sarılaraq virtual dünyada yaşamağa üstünlük verir. Sosial şəbəkələrin ilk növbədə uşaqlara ziyanı dəyir. Valideynlərin çoxu uşaqlarına yıracaq vaxtı sosial şəbəkələrə ayırır ki, bu da uşağın qayğısından kənar böyüməsinə gətirib çıxarır. Bir çox valideynlər isə uşağın da əlinə bir smartfon alıb verir ki, ondan əl çəksin.

Son dövrlərdə sosial şəbəkələrə aludə olanların həyat yoldaşına laqeyd münasibət və aldatma halları artmaqda davam edir. Nəticədə ailələrdə narazılıqlar artır, bəzi hallarda bu boşanma, hətta cinayət faktına gətirib çıxarır. Mütəxəssislər hesab edirlər ki, sosial şəbəkə adamları asosiallaşdırır.

## "Sosial şəbəkələr Azərbaycan ailəsinə ciddi müdaxilə edib"

Sosioloq Əhməd Qəşəmoğlu sosial termin olan virtual xəyanətin son dövrlərdə geniş yayıldığını söyləyir və hesab edir: "Sosial şəbəkələrdə tanışlığın get-gedə sürətlə şəxsi münasibətlərə çevrilməsi sonna ailələrin dağılmasına, hətta cinayət faktlarına gətirib çıxarır. Azərbaycanda da bu hallarla tez- tez rastlaşırıq".

Ekspertin sözlərinə görə sosial şəbəkələr Azərbaycan ailəsinə ciddi müdaxilə edib. İnternetdəki mənfi məlumatlar, insanların psixologiyasına zərər vurur. Bunun qarşısı yalnız maarifləndirmə yoluyla alınmalıdır. Azərbaycanda sosial şəbəkədən istifadə mədəniyyəti formalaşdırmalıyıq. Sosial şəbəkələrdə nəzarət sistemini yaratmaqla bunun qarşısının alına biləcəyini düşünürəm. Yəni, həddi keçəndə admindən istifadəçilərə xəbərdarlıq gəlsə, onda onlar internetdə artıq fəaliyyətlərə yol verməz və bu daha güclü təsir edər".

## "Virtual münasibətlər real boşanma ilə bitir"

Sağlam Cəmiyyət Hərəkatının ekserti, hüquqşünas Nübar İsmayılovanın sözlərinə görə, ailəsində problem olan, həyat yoldaşı ilə münasibətində anlaşılmazlıqlar yaşayan, virtual məkanda "vaxtını öldürən" kifayət qədər evli qadın var: "Bəlkə də ilk baxışda bütün qadınlar düşünürlər ki, mən özümü bilirəm, iradəmə hakiməm, yetkin insanam, kimsə məni "yoldan çıxara" bilməz. Buna şübhəmiz yoxdur, amma çox qadın etiraf edir ki, ona gələn səmimi mesajlara cavab yazmaya bilmir, yazır, yazır və beləcə münasibət yaranır".

Evli kişilərin sosial şəbəkə macərasına gəlincə isə, hüquqşünas hesab edir ki, bu da problemin digər tərəfidir: "Bir çox kişi ordan maraq, tanışlıq və yeni münasibətlər qurmaq üçün istifadə edir. Düzdür, onların arasında sadəcə işgüzar əlaqələr, səmimi dostluq quranlar da az deyil, amma sosial şəbəkələrdə "qadın ovu"na çıxan kişilər daha çoxdur. Onun səmimi yazışmalarından xəbər tutan xanımı isə nəfəsini məhkəmədə dərir. Beləcə, sosial şəbəkələr bir çox ailələrin dağılmasında roy oynayır".

## "Sosial şəbəkələrə görə qətl halları da baş verir"

Ekspert sosial şəbəkələrin insanlara təsirinin ikitərəfli xarakter daşıdığını deyir: "Bu vasitə ilə hətta indi evlənmə də aktualdır. Günümüzdə sosial şəbəkələr vasitəsilə tanış olub ailə quranlar da az deyil. Digər bir tərəfi isə ailədə boş yerə qısqanclıqlar yaratmasıdır. Hətta, bundan başqa formada istifadə edənlər də çoxdur. Statistikaya görə isə, sosial şəbəkələrin səbəb olduğu boşanmalara çox az halda rast gəlinir. Bu da atalıq, analıq hüququnun məhdudlaşdırılması ilə bağlı olur.

Hər nə qədər gizli qalsa da, sosal şəbəkələr ucbatından bizim ölkəmizdə də ailələr dağılır. Düzdür, çoxları heç bilmir ki, bu ailə nə səbəbdən dağıldı, çünki məhkəmə onları "yola getməmək", "davamlı mübahisə" kimi səbəblərlə boşayır. Əslində, ailələrin bəzilərində boşanma səbəbi belədir: "qadın və ya kişi davamlı olaraq sosial şəbəkədə, messencerdə olduğuna və birbiri ilə ünsiyyət saxlamadığına görə ailədaxili söz-söhbət yaranıb və tərəflər boşanmağa qərar veriblər".

Hüquqşünas qeyd etdi ki, sosial şəbəkələrə görə həyat yoldaşının qətlə yetirilməsi kimi cinayət halları da baş verir. Burda bəzi hüquqi problemlər meydana çıxır. Əksər hakimlər yazışmanı və səs yazısını sübut kimi qəbul etmir. Yalnız ekspertizada təsdiqləndikdən sonra səs və yazışmaların həmin adama aid olub-olmadığı qəbul edilir".

## Evdən qaçan qızlar internetin qurbanıdır?

İndi qəzet və saytlarda, bəzən televiziyalarda internetdə tanış olduğu oğlanla qaçan yeniyetmə qızlar barədə olduqca çox məlumat olur. Yaşlı nəsil qətiyyətlə əmindirinternet yeniyetmələri yoldan çıxarır! Gənc nəsil isə internetin bu məsələdə günahsız olduğunu deyir. Məsələ burasındadır ki, gənc nəsil evdən qaçmaq istəyən yeniyetmənin internetsiz də bir yol tapa biləcəyinə əmindir.

Pedaqoq İbrahim Cəfərov deyir ki, gənclərin internetdə tanış olub evlənmək istəyi əksər hallarda arzu olaraq qalır: "Çünki valideynlər bu cür tanışlığa və evliliyə razı olmurlar. Onlar adət etməyiblər ki, hansısa bir qurğu vasitəsi ilə kiminləsə yazışasan, tanış olasan, sonra da onunla sevgi münasibətin olsun. Çünki yaşlı nəsil real ünsiyyət formasına üstünlük verir və haqsız da deyillər. Virtual məkandakı söhbətin real və ya yalan olmasını, tərəf-müqabilinin xarakterinin necə olduğunu aydın etmək olmur. Aldanmaq təhlükəsi çoxdur. Lakin internetdə tanış olub sonra evlənən xoşbəxt ailələr də var. Demək hər şey insanların özündən asılıdır, ağıllı yanaşma ilə hər şeyin mənfi yox, müsbət tərəflərindən istifadə etmək olar".

## İnternet bıçaq kimidir...

Sosial şəbəkədə yayılan məlumatlar ailədə, gənclər arasında münaqişələrə səbəb olacaq formada təsirini göstərir. Bəzi ölkələrdə internetdə zərərli məlumatların yayılmasının qarşısını alan xüsusi filtr proqramı tətbiq olunur. Həmin filtr proqramı çərçivəsində internetdə insan alverinin, alkoqollu içkilərin, narkotik reklamların və bu istiqamətdə digər mənfi halların yayılmasının qarşısı alınır. Azərbaycanda da buna ehtiyac var.

Azərbaycanda sosial şəbəkədən istifadə hələlik az hallarda boşanmaya səbəb olur. Lakin bu tendensiya getdikcə artır. Bəzən vətəndaşların çoxunun bunu gizlətməsinə baxmayaraq ölkəmizdə boşanmaların əsas səbəbi xəyanət faktıdır. İkincisi, narkotikdən, alkoqoldan istifadə, sonsuzluq, məişət zorakılığı və digər hallardır.

Yəni, sosial şəbəkələr ailələrə, fərdlərə müxtəlif formada təsir göstərir. Bəziləri sosial şəbəkənin xeyrini görür, çünki informasiya tələbatını ödəyir, intellekti, dünyagörüşü gücləndirir, biliyi təkmilləşdirir, yeni tanışlıqlar yaradır. Bəziləri isə zərərini görür, virtual aləmin köləsinə çevrilir, sosial şəbəkələrdə "yaşayır", psixologiyasına, səhhətinə zərərli vərdişlər qazanır. Amma ümumən sosial şəbəkələr bizə çox şey verir, münasibətlərimiz genişlənir, yoldaşlığımız sərhəd tanımır. Onun sayəsində fəaliyyətimiz genişlənir, fikirlərimizi daha geniş auditoriyaya çatdıra bilirik. Əsas olan odur ki, sən bu imkanı hansı yöndə istifadə etməyə meyillisən. Yəni, mütləq yaxşı, mütləq pis olan yoxdur, hər şeyin öz funksiyası, təyinatı var.

O ki qaldı ailələrə təsir məsələsinə, bu, real ünsiyyət vərdişlərinin azalmasına səbəb olur. Biz əvvəl sosiallaşmaq üçün canlı ünsiyyətdə olurduq, qohumla, qonşuyla münasibət yaradırdıq, indi sosial şəbəkədən hal-əhval tuturuq. Ər arvadına sözünü bu otaqdan o birinə keçib demir, şəbəkədən yazır. Bu isə artıq real ünsiyyəti məhdudlaşdırır. Hər şeydən normal istifadə etsək, problem də yaranmaz.

Ümumiyyətlə, məşhur misalda deyildiyi kimi, bıçaqla çörək də doğramaq olar, adam da öldürmək. İnternetdən, sosial şəbəkələrdən istifadə də beləcədir- gənclərin öhdəsinə bu məsələdə çox şey düşür.

*Lalə Mehralı*

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

## Formula 1 Azərbaycan Qran-Prisinin təqvimi açıqlanıb



Formula 1 Azərbaycan Qran-Prisinin təqvimi açıqlanıb. Belə ki, Bakı şəhər halqasında yarış iyunun 4-də yerli vaxtla saat 13:30-da start götürəcək. Həmin gün saat 17:00-da ikinci test yürüşü başlayacaq. Növbəti - sonuncu sərbəst yürüş iyunun 5-də saat 14:00-da başlayacaq. Hər üç yürüş bir saat davam edəcək. Sıralama turu iyunun 5-də saat 17:00-da start götürəcək. Azərbaycan Qran-Prisi isə iyunun 6-da saat 16:00-da başlayacaq. Xatırladaq ki, Formula 1 yarışları Bakıda 2016-cı ildən keçirilir.

30 yanvar

## Hakimlər üçün "Tofiq Bəhramov mükafatı" təsis ediləcək



**Yanvarın 29-da AFFA-nın İcraiyyə Komitəsinin videokonfrans formatında iclası keçirilib. AFFA-nın yaydığı məlumatda deyilir ki, aparılmış müzakirələrdən sonra mövsüm ərzində fərqlənən hakimlərin mükafatlandırılması üçün "Tofiq Bəhramov mükafatı"nın təsis olunması barədə qərar qəbul edilib. Eləcə də Azərbaycan milli komandalarının COVID-19 pandemiyası və Vətən müharibəsi dövründə müxtəlif tibb müəssisələrində fəaliyyət göstərmiş həkimlərinə AFFA-nın İcraiyyə Komitəsi tərəfindən təşəkkür edilməsi qərara alınıb.**

## Duqlas Kosta "Milan"ın transfer siyahısında



İtaliyanın "Yuventus" klubunun Almaniya "Bavariya"sına icarəyə verdiyi Duqlas Kosta karyerasını yenidən A seriyasında davam etdirə bilər. SİA-nın məlumatına görə, 30 yaşlı hücumçu "Milan"ın transfer siyahısında yer alıb. A seriyası təmsilçisi braziliyalı ilə müqavilə imzalamağa hazırlaşır. Milanlılar forvardı qış transfer pəncərəsinin sonunadək heyətinə qatmağı planlaşdırır. Bu keçidin reallaşmasında yeganə problem Duqlasın maaşının yüksək olmasıdır. Onun illik qazancı 6 milyon təşkil edir. Qeyd edək ki, Kosta cari mövsüm 19 oyunda 1 qol vurub.

## Limonlu çay arıqlamağa kömək edir



Çay, insanın çəkisini artıran şirin içkilərlə müqayisədə kalorisi olmayan yüksək keyfiyyətli içkidir. Sağlamlığa xeyri olan çay içərkən biz təkcə arıqlamırıq, həm də bir sıra üstünlüklər, o cümlədən, soyuqdəymədən və ya zökəmdən sonra bərpa olunmaq üçün üstünlüklər əldə edirik. Limon, arıqlamaq istəyənlər üçün faydalı olan S vitamini, sellüloz və bitki birləşmələri ilə zəngindir.

"MedikForum" saytında yer alan məlumatda qeyd olunur ki, bəzi tədqiqatlardan alınan nəticələrə görə, limonlarda həll olunan sellüloz toxluq hissini uzadır. Orqanizmdəki toksinləri təmizləyən bu gözəl içkinin düzgün qəbulu bədənin normal fəaliyyəti üçün zəruridir. Çay qidanı enerjiyə çevirir və metabolizm prosesini yaxşılaşdırır.

Metabolizmin sürəti aktivliyi saxlamaq üçün bədənin hansı tempdə kalori yandırdığını müəyyənləşdirir. Tədqiqatlar göstərir ki, limon şirəsinin istifadəsi ümumi kaloriliyi məhdudlaşdırmaqla birlikdə piy çöküntülərini azaldır və menopauza ərəfəsində qadınlarda insulinorezistentliyi artırır.

Adi limonlu çay hazırlamaq üsulu çox sadədir. Qaynadılan suya bir xörək qaşığı adi çay əlavə olunur və bir dəqiqəlik qaynamağa qoyulur. Daha sonra isə, limon şirəsi və şəkər əlavə olunur. İçkini yaxşıca süzgəcdən keçirmək, sonra da dadına görə isti və ya soyuq içmək tövsiyə olunur. Daha effektiv nəticələr əldə etmək üçün gündə bir-iki fincan şəkərsiz limonlu çay içmək olar.

## Polis Bakıda əməliyyat keçirdi, narkotik alverçiləri yaxalandı



Baş Narkotiklərlə Mübarizə İdarəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Q.Vəliyev Suraxanı rayonu ərazisində saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, şəxsi axtarış zamanı 60 qramdan artıq heroin aşkar edilib. Davam etdirilən tədbirlərlə onun Qaraçuxur qəsəbəsindəki mənzilinə baxış zamanı isə 9 kiloqramdan artıq heroin, 1 kiloqram 880 qram metamfetamin, 525 qram tiryək, 1 kiloqram həşiş, 1900 ədəd metadon həbi və 3 ədəd elektron tərəzi götürülüb.

İdarə əməkdaşlarının keçirdikləri digər əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən, əvvəllər məhkum olunmuş A.Babayev Nərimanov rayonu ərazisində saxlanılıb. Şəxsi axtarış zamanı ondan 20 qramdan artıq heroin aşkar edilmişdir.

Davam etdirilən tədbirlərlə onun yaşadığı mənzildən 1 kiloqram 780 qram heroin, 560 qram metamfetamin və narkotik vasitələrin satışından əldə edilmiş pulların yükləndiyi 2 ədəd bank kartı götürülüb.

## Əmrah 5 dəqiqəlik lazer işıq üçün 50 min dollar ödəyəcək



Müğənni Əmrah öz holoqramını yaratmaq qərarına gəlib. "İki sahil" bildirir ki, televiziya proqramlarına dəvət olunan, amma qatılmayan Əmrah bu problemi fərqli yolla həll edəcək. Belə ki, sənətçi öz holoqramının yaradılması üçün sifariş verib. Bir çox dünya ulduzlarının da reallaşdırdığı bu yeniliyi Türkiyədə ilk dəfə Əmrah həyata keçirəcək. Lazer işıqlardan ibarət 3D formatında hazırlanacaq holoqram üçün Niderland şirkətlərindən biri ilə müqavilə də imzalanıb. 5 dəqiqəlik lazer işıq üçün sənətçi 50 min dollar (85 min manat) ödəyib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**